QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 110 (5582) 9 **iyun** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# 9 İyun - Qurtuluşa aparan tarixi yol



Səh 3

Azərbaycan ilə Avropa Komissiyası arasında yüksək səviyyədə əməkdaşlıq mövcuddur

2

Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı keçirilib

4

Nazirlər Kabinetinin 2018-ci il üçün iş planında nəzərdə tutulmuş məsələlərə dair geniş iclas keçirilib

5

“Erməni xalqının səfalətdən xilas olması Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllindən asılıdır”

5

Psevdodemokratlar və “beşinci kolon”: antiazərbaycan kampaniyasının bir özəlliyi haqqında

6

Bəhruz Quliyev: “Paşinyan pafosdan uzaq durmalı və imitasiyadan əl çəkməlidir”

9

12
Erməni inqilabının “çırağı” necə sönür?


7
“Paşinyanın təsəvvürü, konkret proqramı yoxdur”


16
Avropa çempionatı: İki Azərbaycan güləşçisi yarımfinala yüksəlib


# Azərbaycan ilə Avropa Komissiyası arasında yüksək səviyyədə əməkdaşlıq mövcuddur

*Prezident İlham Əliyev Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidentini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.

AZƏRTAC xəbər verir ki, Yan Zahradilin sabah ölkəmizdə keçiriləcək Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitində iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bu önəmli beynəlxalq forumun Azərbaycan paytaxtında təşkil olunmasını yüksək qiymətləndirdi.

Azərbaycana həm Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, həm Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, həm də Avropa Parlamentinin üzvü qismində səfər etdiyini deyən Yan Zahradil bildirdi ki, rəhbərlik etdiyi alyans Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirir. Çexiya-Azərbaycan ikitərəfli münasibətlərinə toxunan qonaq bu münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimizin strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlığının önəmini vurğuladı. Yan Zahradil Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafına töhfə verməsindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğuladı. Prezident İlham Əliyev sabah Bakıda keçiriləcək tədbirin paytaxtımıza gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

### Rəsmi xronika

Prezident İlham Əliyev Qazax rayonunun Qazax-Uzuntala (9 km)-Cəfərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev İmamverdi İsmayılovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İmamverdi İbiş oğlu İsmayılov "Şöhrət" ordeni ilə təltif edilir.

# Azərbaycan ilə Qambiya beynəlxalq təşkilatlar çərçivəsində bir-birini daim dəstəkləyirlər

*Prezident İlham Əliyev Qambiyanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Qambiya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və BMT-də uğurlu əməkdaşlıq həyata keçirdiyini və bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin Qambiya tərəfindən beynəlxalq platformada dəstəklənməsinə görə təşəkkürünü bildirdi.



Xarici işlər naziri Ousainu Darboe Qambiya Prezidenti Adama Barrounun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Prezident Adama Barrou Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişafa nail olduğunu və bölgədə əməkdaşlığa, iqtisadi inkişafa, sülhün və təhlükəsizliyin təmin olunması işinə mühüm töhfə verdiyini bildirib. Nazir Ousainu Darboe Azərbaycan ilə Qambiyanın Qoşulmama Hərəkatında fəal iştirakını qeyd edərək ölkələrimizin İslam Əməkdaşlıq Təşkilatında, BMT-də bir-birini qarşılıqlı surətdə dəstəklədiyini vurğuladı. Ousainu Darboe daha sonra qeyd etdi ki, onun ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və diqqətə çatdırdı ki, Qambiya Prezidenti Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini qətiyyətlə pisləyir.

Prezident İlham Əliyev Qambiya Prezidenti Adama Barrounun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qambiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan ilə Qambiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyi qeyd edildi.

# 9 İyun - Qurtuluşa aparan tarixi yol

İctimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayan Azərbaycan yüksək göstəriciləri və nəticələri ilə dünya dövlətləri sırasında qüdrətini daha da artırır. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın - Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu qeyd etməliyik. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünkü dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi. Bu tarix - xalqımızı nicata aparan yol 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı.

Tarixin gedişinə nəzər salsaq, görərik ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyev Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından “sovet sosialist” sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi.

Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək “Azərbaycan Respublikası” adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siysi proeslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası, xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev



Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan, inkişafdan danışmaq olmazdı.

Sonra hadisələr daha müsbət məcralara yönəldi, ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. İrəlidə müstəqilliyin mürəkkəb və keşməkeşli illəri dururdu. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycan siyasi müdriklik gətirdi. “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz” - deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev “Müstəqilliyin qoruması onu əldə etməkdən qat-qat çətindir” məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu Öndər qarşıya çıxan bütün sərhədlərə qarşı mövqe və iradəsini qəti şəkildə qoydu. Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi:”Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır”, - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - “Əsrin müqaviləsi” imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

## MÜSTƏQİL AZƏRBAYCANIN TARİXİ NAİLİYYƏTİ, ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏSASINI QOYDUĞU İNKİŞAF STRATEGİYASININ MƏNTİQİ NƏTİCƏSİDİR

Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması, vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır.

Dinamik inkişafda olan ölkəmiz dünya miqyasında iqtisadi böhranların, ictimai-siyasi problemlərin mövcud olduğu şəraitdə inkişaf tempini qoruyub-saxlayır. Bu inkişaf göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda müşahidə olunur. Bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda, innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb.

Azərbaycanın ötən illərdəki uğurlarının fonunda işlənib- hazırlanan və təsdiqlənən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası da Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmağa istiqamətlənib. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə olacaq. Həqiqətən də, Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək, bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə, haqlı olaraq, fəxr edə bilər. Uğurlu daxili və xarici siyasət sayəsində dövlətçilik ənənələri möhkəmlənib və iqtisadiyyat dinamik inkişaf edib. Dövlət neft strategiyasının həyata keçirilməsi ilə yanaşı, bu illər ərzində ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahibkarlığın inkişaf etdirilməsi və maliyyə-bank sisteminin qurulması istiqamətlərində mühüm layihələr gerçəkləşdirilib. Ölkəmizdə neft və qeyri-neft sektorunun yüksəlişi ümumi daxili məhsulun artmasına, güclü sahibkarlar zümrəsinin və orta təbəqənin yaranmasına təkan verib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Ulu Öndər Heydər Əliyevin strateji xəttini siyasi, iqtisadi, sosial və s. kimi bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib. Bütün əldə edilən bu uğurlar müstəqil Azərbaycanın tarixi nailiyyəti və Ulu Öndər Heydər Əliyevin əsasının qoyduğu inkişaf strategiyasının məntiqi nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı keçirilib

***İyunun 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) illik ümumi yığıncağı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, müxtəlif dövlət və hökumət qurumlarının, ali təhsil müəssisələrinin rəhbərləri, AMEA-nın həqiqi və müxbir üzvləri, akademiyanın institut və təşkilatlarının direktorları, KİV nümayəndələri iştirak ediblər.***





AMEA-nın prezidenti akademik Akif Əlizadə ümumi yığıncağı açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib. Tədbirdə Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan görkəmli alimlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra akademik A.Əlizadə AMEA-nın beşillik fəaliyyətinə dair məruzə ilə çıxış edib.

AMEA-nın rəhbəri akademiyanın Rəyasət Heyətinin 2013-cü ildə seçilmiş tərkibinin beşillik fəaliyyət müddətinin başa çatdığını, bu dövrdə prioritet istiqamətlər üzrə bir sıra nailiyyətlər qazanıldığını bildirərək deyib: “Bu gün akademiya elmi problemlərin həlli ilə yanaşı, respublikamızın ictimai və iqtisadi inkişafında, strateji yol xəritələrinin həyata keçirilməsində yaxından iştirak edir”.

Akademiyanın prezidenti “Web of Science”, “Scopus”, “Google” bazaları üzrə yüksək statistik göstəricilər əldə edildiyini, tətbiqi tədqiqatların səmərəliliyinin əhəmiyyətli dərəcədə artırıldığını, elm və təhsilin inteqrasiyası, elektron elmin formalaşması istiqamətlərində mühüm addımların atıldığını, beynəlxalq elmi əlaqələrin genişləndiriyini deyib.

Akif Əlizadə AMEA-da həyata keçirilən sosial proqramlardan, elmin populyarlaşdırılması istiqamətində fəaliyyətdən, hüquqi islahatlardan, ictimaiyyətlə əlaqələrin qurulmasında əldə edilən uğurlardan da söz açıb. Akademik A.Əlizadə bildirib ki, hesabatın mətni təkliflərini bildirmək üçün əvvəlcədən əməkdaşlara paylanılıb.

Sonra AMEA-nın akademik-katibi Rasim Əliquliyev Akademiya Rəyasət Heyətinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair sualları cavablandırıb.

Tədbirdə çıxış edən təhsil naziri Ceyhun Bayramov bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında səmərəli əlaqənin yaradılmasıdır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda ali təhsil müəssisələrində “təhsil-tədqiqat-innovasiya” formatında inkişafın təşviqi əsas hədəflərdən biri kimi nəzərdə tutulub ki, bu da elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılmasına diqqətin artırılmasını zəruri edib. C.Bayramov Təhsil Nazirliyinə tabe olan ali təhsil müəssisələrində çalışan alimlər tərəfindən hər il 200-dən çox monoqrafiya, 800-dən artıq dərslik və dərs vəsaiti, 10 mindən çox elmi məqalə və məruzə nəşr olunduğunu diqqətə çatdırıb.

Kənd təsərrüfatı naziri İnam Kərimov qeyd edib ki, aqrar sahədə elmi tədqiqatların prioritetlərinin müəyyənləşdirilməsi və nəticəyönümlülüyünün artırılması məqsədilə qabaqcıl təsərrüfatların, peşəkar təşkilatların, universitet nümayəndələrinin və müstəqil ekspertlərin iştirakı ilə Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi yanında Koordinasiya Şurası yaradılıb. Elmi-tədqiqat işlərinin stimullaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Əməkdaşlıq Protokolu imzalayıb və bir sıra özəl şirkətlərlə əlaqələr qurub. Bu sahədə əldə edilən elmi nailiyyətlərin həmin təşkilatların təsərrüfatlarında tətbiqi ilə bağlı razılıqlar əldə edilib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, inkişaf strategiyasında elm və texnologiyalar mühüm yer tutur. Bu baxımdan qarşıda duran vəzifələrdən biri elmə, yüksək texnologiyalara əsaslanan istehsalın genişləndirilməsidir. Ölkəmizdə bu istiqamətdə ciddi addımlar atılır. Texnoloji parklar, sənaye zonaları, biznes inkubatorlar yaradılır və innovativ ideyaların dəstəklənməsi üçün imkanlar genişləndirilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində fəaliyyət göstərən Pirallahı və Mingəçevir yüksək texnologiyalar parkları, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Yüksək Texnologiyalar və Milli Nüvə Tədqiqatları mərkəzləri bu məqsədlərə xidmət edir. Müasir avadanlıqla təchiz edilmiş Yüksək Texnologiyalar Mərkəzində alimlərimiz Xəzər neftindən istifadə etməklə nanoborular hazırlayıblar. Yeni nəsil LED lampaların hazırlanması istiqamətində də uğurlu nəticələr var və artıq sınaqlar həyata keçirilir.

Daha sonra AMEA İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, akademik Asəf Hacıyev, Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri akademik Teymur Bünyadov, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova çıxış ediblər. Tədbirdə ümumi yığıncağın qərar layihəsi müzakirə olunub. AMEA-nın Rəyasət Heyətinin 2017-ci ildəki fəaliyyəti qənaətbəxş hesab edilib və hesabat təsdiqlənib.

Qərarda “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda əks olunmuş elmi-nəzəri, praktik və innovativ istiqamətlərdə vəzifələrin reallaşdırılması üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq tədbirlərin həyata keçirilməsi, beynəlxalq elmi əlaqələrin, eləcə də yüksək texnoloji bizneslə əməkdaşlığın genişləndirilməsi, AMEA-da magistrant və doktorant hazırlığının dünya elminə inteqrasiya olunan, ölkədə bilik iqtisadiyyatını inkişaf etdirən perspektiv elmi istiqamətlər üzrə aparılması və digər məsələlərlə bağlı müddəalar yer alır.

Sonra ümumi yığıncaqda “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” və AMEA-nın görkəmli alimlərin adlarını daşıyan mükafatları təqdim olunub.

Daha sonra ümumi yığıncaqda AMEA-nın prezidenti vəzifəsinə və AMEA-nın Rəyasət Heyətinin üzvlüyünə seçkilər keçirilib. Səsvermədə AMEA-nın həqiqi üzvləri iştirak ediblər. Akademik Akif Əlizadə 66 həqiqi üzvün səsini əldə edərək növbəti beş il müddətinə yenidən AMEA-nın prezidenti seçilib.

Akademiklər Nərgiz Paşayeva və İradə Hüseynova AMEA-nın yeni vitse-prezidentləri seçiliblər. Seçkinin nəticələrinə görə, akademiklər İsa Həbibbəyli, İbrahim Quliyev, Tofiq Nağıyev və Dilqəm Tağıyev yenidən AMEA-nın vitse-prezidentləri, AMEA-nın müxbir üzvü Bilal Bilalov Rəyasət Heyətinin üzvü vəzifəsini icra edən seçiliblər. Bundan başqa, səsvermə nəticəsində akademik Rasim Əliquliyev AMEA-nın akademik-katibi, akademiklər Əhliman Əmiraslanov Biologiya və Tibb Elmləri Bölməsinin, Nazim Məmmədov Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin, Fəxrəddin Qədirov Yer Elmləri Bölməsinin, Dilqəm Tağıyev Kimya Elmləri Bölməsinin, Nərgiz Axundova İctimai Elmlər Bölməsinin, Teymur Kərimli Humanitar Elmlər Bölməsinin, İsmayıl Hacıyev Naxçıvan Bölməsinin, Fuad Əliyev isə Gəncə Bölməsinin akademik-katibləri seçiliblər. Bununla da, AMEA-nın ümumi yığıncağı başa çatıb.

# Nazirlər Kabinetinin 2018-ci il üçün iş planında nəzərdə tutulmuş məsələlərə dair geniş iclas keçirilib



*İyunun 8-də Baş nazir Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair geniş iclas keçirilib.*

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyinə Azərbaycan Respublikasının "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişi"ndən irəli gələn öhdəliklər və bu öhdəliklərin yerinə yetirilməsi üzrə aidiyyəti dövlət qurumlarının qarşısında duran vəzifələr haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının yeni qanununun layihəsi barədə və idxalı əvəz edən rəqabətqabiliyyətli məhsul istehsalının təşviqi və dəstəklənməsi ilə bağlı verilmiş təkliflərə dair məsələlər daxil edilib.

Müzakirəyə çıxarılan məsələlər üzrə aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənildikdən sonra hər üç mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb. Sonda gündəlikdə duran məsələlərə dair müvafiq qərarlar qəbul edilib. İclasa yekun vuran Baş nazir Novruz Məmmədov qarşıda duran vəzifələrin icrası ilə bağlı Nazirlər Kabinetinin müvafiq qurumlarına tapşırıqlar verdi.

# Siyavuş Novruzov: "Erməni xalqının səfalətdən xilas olması Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllindən asılıdır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Ermənistandakı hərbi xunta ölkə vətəndaşlarını əsarət altında saxlayır, iqtisadiyyatı darmadağın edib, sosial problemlər pik həddinə çatıb. Sonda bu problem Ermənistan əhalisinin özü tərəfindən etiraf olundu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. O qeyd edib ki, cinayətkar rejimin ölkədə yaratdığı ağır vəziyyət nəticəsində iş tapa bilməyən Ermənistan əhalisi xarici ölkələrə miqrasiya etməyə məcbur olur.

Siyavuş Novruzov bildirib ki, dövlətimizin başçısı müxtəlif beynəlxalq tədbirlərdə Ermənistandakı iqtisadi, demoqrafik böhranla bağlı faktları dəfələrlə səsləndirib. Azərbaycan Prezidentinin illər ərzində dediyi sözləri indi erməni xalqı deyir. Dağlıq Qarabağdakı erməni əhalisi də problemdən çıxış yolunu Ermənistan-Azərbaycan münaqişəsinin həllində görür. Ermənistan xalqının normal yaşaması üçün bu, zəruridir. Ermənistan apardığı işğalçı siyasətin nəticəsində bu gün Azərbaycanın həyata keçirdiyi mühüm beynəlxalq nəqliyyat layihələrindən kənarda qalıb. Hazırda Ermənistanda sənaye müəssisələri fəaliyyətini dayandırıb və ucuz qiymətə müxtəlif xarici ölkələrə satılır. Bununla yanaşı, hərbi xuntanın bir qrup üzvü narkotik maddələrin qanunsuz dövriyyəsi və gizli silah satışı ilə məşğuldur. Əldə olunan maliyyə vəsaiti isə terrorçu qrupların hazırlanmasına sərf edilir. Müxtəlif xarici ölkələrdəki erməni diaspor təşkilatları Ermənistana göstərilən maliyyə yardımlarını dayandırıblar. Ermənistanın yeni rəhbərliyi bütün bunları nəzərə alıb normal siyasi fəaliyyətlə məşğul olmalı, dövlətimizin başçısının qeyd etdiyi kimi, əvvəlki hakimiyyətin səhvlərini təkrarlamamalı və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görməlidir. Çünki erməni xalqının səfalətdən xilas olması Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllindən asılıdır.

# Dahi Xilaskarın möhtəşəm qayıdış tarixi

*Azərbaycan tarixinin ən şanlı səhifələrindən olan bu tarixi anların şahidi olan Şəmsəddin Xanbabayevin (1992-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının Baş Naziri, hal-hazırda Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı) xatirələrini təqdim edirik*



- Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin edən 15 iyun - xalqımızın nicat günü. Artıq 25 illik ildönümünü qeyd etdiyimiz Milli Qurtuluş Günümüz. Doğma xalqının çağırışına heç vaxt biganə qalmayan Heydər Əlirza oğlu Əliyevin 1993-cü il iyun ayının 9-da xalqın tələbi ilə Naxçıvandan Bakıya gəlişi. Prezident Əbülfəz Elçibəyin təyyarəsi iyunun 7-dən Naxçıvan Hava Limanında Heydər Əliyevi gözləyirdi. Baxmayaraq ki, Ulu Öndər hələ Bakıya getmək barədə qərar verməmişdi. İyunun 8-də saat 18 radələrində prezident Ə.Elçibəy dövlət telefonu ilə mənim otağıma zəng etdi. Onun, dönə-dönə düz 3 dəfə təkrar edərək, dediklərini mən də çox aydın şəkildə eşitdim: "Qoy, Bakıya gəlsin, Onun ayağının altında qurban kəsərəm. Qardaş qırğını başlayır, Azərbaycan parçalana bilər. Heydər Əliyev indi də gəlməyib, nə vaxt gəlmәlidir?!" Bakıdan olan bu telefon zəngi barədə məlumat vermək üçün özünün icazəsi ilə dərhal Ulu Öndərin iş otağına gəldim və eşitdiklərimi olduğu kimi ona danışdım. O, diqqətlə məni dinlədikdən sonra, - "Şəmsəddin, bir də təkrar elə", - dedi. Mən də təkrar etdim. Ayağa durub kabinetdən çıxmaq istəyirdim ki, O, məni saxlayaraq, "hər şeyi olduğu kimi bir də danış", - dedi. Mən də eşitdiklərimi yenidən təkrar etdim.

Beləliklə, Ulu Öndər Azərbaycanda yaranmış mürəkkəb hərbi-siyasi vəziyyəti aradan qaldırmaq və qardaş qırğını təhlükəsinin qarşısını almaq məqsədilə iyunun 8-də axşam Bakıya dönmək barədə qərar verdi və mənə tapşırdı ki, Şəmsəddin, sən aidiyyatı şəxslərlə danış ki, bizim təyyarə Ermənistan üzərindən deyil, İran üzərindən uçsun. Özün də hazırlaş, mənimlə Bakıya gedəcəksən. Təbiidir ki, mən də Onun adından kimlərlə lazımdısa danışaraq, məsələni həll etdim. İyunun 9-da saat 11-də Ulu Öndər Ali Məclisin binasından çıxaraq, hava limanına gedərkən Ali Məclisin qarşısına toplaşmış 50 mindən çox insan Onu yola salmağa gəlmişdi. Toplaşanlar arasında muxtar respublikanın demək olar ki, bütün rayonlarından gələn çoxsaylı insanlar var idi. Qadınlarla yanaşı, hətta bəzi kişilər də ağlayırdı. İnsanlar sanki qorxurdular ki, bu gedişlə Heydər Əliyev Naxçıvansız, Naxçıvan isə Ulu Öndərsiz qalacaq. Əsas olan isə, o idi ki, bu insanların hamısı sevindiyindən ağlayırdı. Hamı yaxşı bilirdi ki, O, Bakıya getməklə qardaş qırğını dayanacaq və Azərbaycan parçalanmaqdan xilas olacaq. Naxçıvandan Bakıyadək 1 saat 5 dəqiqəlik uçuş zamanı mən təyyarədə masa arxasında Ulu Öndərlə üzbəüz oturmuşdum. O, yol boyu söhbət edirdi. Hərdənbir fikrə gedirdi. Hiss edirdim ki, Ulu Öndər belə anlarda daha çox, məhz qarşıdakı görüşlər, müstəqil Azərbaycanın yaxın və uzaq qayğıları barədə düşünür. O vaxtdan 25 il keçir və hər dəfə həmin tarixi anı xatırladıqca, özümü çox xoşbəxt insan hesab edirəm.

Bakı Hava Limanında gözlədiyimizdən qat-qat artıq insan Ulu Öndəri qarşılamağa gəlmişdi. Baxmayaraq ki, o zamanlar ölkə rəhbərliyində buna mane olmaq istəyənlər kifayət qədər çox idi. Görünür, Ümummilli Lideri qarşılamağa gələn insan axınına heç kim və heç bir vasitə ilə mane ola bilməmişdi. Bu, ölkənin ən çətin anında xilaskarlıq missiyasını qürurla öz üzərinə götürərək, şərəflə yerinə yetirən xalqımızın dahi oğlu, Ulu Öndər Heydər Əlirza oğluna olan sonsuz ümumxalq məhəbbətinin əyani təzahürü idi. Tanrıma minnətdaram ki, Azərbaycanın o şanlı tarixinin dönüş nöqtəsi olan həmin tarixi anların şahidi olmağı mənə də nəsib edib.

***Şəmsəddin Xanbabayev,***
***Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı***

# Azərbaycanın müdafiə naziri NATO-nun toplantısında iştirak edib

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov iyunun 8-də Brüsseldə NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində keçirilən toplantıda iştirak edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, missiyanın gələcəyi, təhlükəsizlik qüvvələrinin saxlanılması üçün tələb olunan maliyyə öhdəçiliyinin 2020-ci ildən sonra da davam etdirilməsi və digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

General-polkovnik Zakir Həsənov iclasda çıxış edərək Azərbaycanın Əfqanıstana göstərdiyi dəstək barədə ətraflı məlumat verib. Müdafiə naziri Əfqanıstanda sülhün və sabitliyin bərqərar olunması üçün beynəlxalq ictimaiyyətin səylərinin Azərbaycan tərəfindən bundan sonra da dəstəklənəcəyini bildirib.



# Psevdodemokratlar və “beşinci kolon”: antiazərbaycan kampaniyasının bir özəlliyi haqqında

***Azərbaycana qarşı qarayaxma kampaniyasının müxtəlif dairələr tərəfindən aparıldığı çoxdan məlumdur. Avropa Şurası Parlament Assambleyası və ABŞ Konqresinin Helsinki Komissiyası da onların oyuncağına çevrilməkdədirlər. Əslində, söhbət, ümumiyyətlə, ikili standartlar siyasətinin dünya dövlətlərinə vurduğu zərərdən gedir. O cümlədən Qərbin bir sıra dairələrinin düçar olduqları islamofobiya getdikcə daha ağır nəticələr verməkdədir. Azərbaycan əleyhinə kampaniyalar bunun işığında kifayət qədər düşündürücü görünür. Xüsusən də ona görə ki, bu prosesdə bir sıra Azərbaycan vətəndaşı da iştirak edir. Helsinki Komissiyasında qərəzli dinləmələr bunun nümunələrindən biridir. AŞPA-nın da bəzi iclaslarında eyni ssenari özünü göstərdi. Bu təşkilatın müstəqil araşdırma qurumunun hazırladığı “hesabat”da korrupsiya faktı ilə bağlı ölkəmizin adının hallandırılması həmin oyunun bir fraqmentidir. Məqsəd aydındır: Azərbaycanı gözdən salmaq, onun antidemokratik obrazını formalaşdırmaq və inkişafına əngəl yaratmaq. Ermənilər və onların havadarları Ermənistanın inkişafına nail ola bilmirlər və əlacları Azərbaycanın qarşısını kəsməyə qalıb. Bəs “beşinci kolon”un dərdi nədir? Bu kimi məsələlərlə bağlı təhlil aparılmasına ehtiyac duyduq.***




### Oyun davam edir: iftira prosesinin yeni səhnəsi

Qərb yalançı demokratiya oyununu davam etdirir. Onun bir sıra müstəqil siyasət yeridən dövlətlərə qarşı təxribatları ara vermir. O cümlədən müsəlman ölkələrinin inkişafına olan qısqanclıq yeni-yeni formalarda özünü göstərməkdədir. Bunu daha çox sürətlə inkişaf edən və kənar təzyiqlərə boyun əyməyən müsəlman dövlətlərinin nümunəsində görmək mümkündür. Bu siyahıda Türkiyə və Azərbaycan da var. Xüsusilə sürətli inkişafı ilə Cənubi Qafqazın lideri səviyyəsinə yüksəlmiş Azərbaycana qarşı çirkin kampaniyalar fərqli məzmun və intensivliklə aparılır. Həmin əlamətləri Avropa Şurası Parlament Assambleyası (AŞPA) və ABŞ Konqresinin Helsinki Komissiyasının fəaliyyətində bir daha gördük.

AŞPA əslində Avropada demokratiya, sülh, barış və davamlı inkişafla yanaşı, dələtin də bərqərar olmasına xidmət etməlidir. Hər bir halda, onu yaradarkən, məhz bu kimi məqsədlərdən bəhs edilirdi. Ancaq xüsusilə son illər bu təşkilatın göstərdiyi fəaliyyət bütün bunların kağız üzərində yazılmış və reallaşmayan gəlişigözəl sözlər olduğunu təsdiqləməkdədir. AŞPA müəyyən dairələrin islamofob duyğularının at oynatdığı bir quruma çevrilib. İkili standartlar onun əsas fəaliyyət prinsipi səviyyəsinə qaldırılıb.

AŞPA əməlli-başlı kimlərinsə əlində təzyiq aləti halına gəlib. Bu qüvvələr siyasətləri maraqlarına uyğun gəlməyən ölkələrin ünvanına elə hədyanlar yağdırırlar ki, təşkilatın Avropanı deyil, Afrikanın cəngəlliklərindəki tayfaları təmsil etdiyi təsəvvürü yaranır. Məsələn, Azərbaycan hansısa mötəbər beynəlxalq tədbir keçirir, deyək ki, “Avroviziya” musiqi yarışmasını təşkil edir, dərhal hengamə başlayır: Azərbaycanda itlərin və pişiklərin hüquqları pozulur! Hətta qonşu İrandan olan jurnalist burnunu kanalizasiyaya soxaraq, heyvan haqqı axtarır! Avropalılar isə daha əcaib oyunlardan çıxırlar. Bütün gücləri ilə göstərməyə çalışırlar ki, Avropanın musiqi yarışı vəhşi bir ölkədə keçirilir! Lakin Azərbaycan rəhbərliyi və xalqı hər dəfə bu məkrli niyyətləri puç edir, qərəzli dairələrin bütün planlarını pozur. O cümlədən “Avroviziya” elə yüksək səviyyədə keçirildi ki, dünya heyran oldu. Yəni Azərbaycan daim əməldə yüksək mədəniyyətə, sivil düşüncəyə, sürətli inkişaf edən iqtisadi sistemə, yeni dəyərlər yaradan siyasi elitaya malik olduğunu sübut edir.

Eyni fikri Azərbaycanın hər bir uğuruna, məsələn, yüksək səviyyədə keçirdiyi seçkiyə Qərbin müəyyən dairələrinin verdiyi reaksiyalar haqqında da deyə bilərik. Son olaraq bu il Azərbaycanda tam demokratik şəraitdə keçirilmiş prezident seçkisi ilə əlaqədar bir sıra dairələrin başladığı ləkələmə kampaniyasını vurğulaya bilərik. Bu xüsusda bir özəlliyi də demək istərdik. Nə yazıq ki, Azərbaycanda və onun sərhədlərindən kənarda yaşayan elə vətəndaşlar tapılır ki, qərəzli dairələrin əlində siyasi-təbliğat oyuncağına çevrilib öz dövləti, milləti, xalqı və cəmiyyəti əleyhinə işləyirlər. Bunu AŞPA-da da müşahidə etdik, Helsinki Komissiyasında da gördük.

Avropa və ABŞ-da yaşayan bəzi Azərbaycan vətəndaşları öz dövlətlərinin əleyhinə elə sözlər işlədirlər ki, sağlam düşüncə onları heç qəbul etməz. Onlar ayrı-ayrı xarici siyasi və iqtisadi antiazərbaycan mərkəzlərindən aldıqları ianələr və qrantların əvəzi olaraq xəyanət missiyasını boyunlarına götürüblər. Çünki müzakirələrdə çıxışları zamanı nəinki sadəcə siyasi opponentlik edirlər, əksinə, daha uzağa gedərək mənsub olduqları millətin mədəniyyətini, dinini və dövlətin kimliyini şübhə altına almaqdan belə çəkinmirlər. İnsan haqları adı altında bütövlükdə xalqa böhtan atırlar. Özü də bunları erməni diasporu nümayəndələrinin qarşısında ərz edirlər.

### Vətəndaş məsuliyyəti və şəxsi maraqlar: natamamlıq kompleksinin bəzi fəsadları

Kimlərinsə, yaxud hansısa dairələrin siyasi müxalifət olmaq istəyini başa düşmək olar. Lakin siyasi bacarıqsızlığı, ümumiyyətlə, millətin və dövlətin qüsuru kimi təqdim etmək başadüşülən deyil. Azərbaycanda qalıb, sivil siyasi mübarizə aparmaq əvəzinə, gedib haradasa 3-5 qəpiyə hər şeyi satmağın adı nədir, çətindir demək. Bunlara “beşinci kolon” da deyirlər. Nə adlansa da, mahiyyət aydındır: öz milli kimliyinə qarşı çıxan manqurtluqdur! Təkrar edirik: məsələnin siyasi opponentlik sərhədinə toxunmuruq, söhbət bütövlükdə xalqa və onun rəhbərliyinə atılan siyasət xaricində olan iftiralardan gedir.

Helsinki Komissiyası həmişə olduğu kimi, yenə də bu kimi məsələlərdə fəallığını nümayiş etdirib. Onun rəhbəri Kris Smitin Azərbaycana münasibəti çoxdan məlumdur. Bu adam “erməni soyqırımı”ndan ağızdolusu danışan, hər fürsətdə Azərbaycanda insan haqları pozuntusu axtaran və siyasi məhbus oyunu quran kəslərdəndir. İndi də həmin zat prezident seçkisində “qanun pozuntuları” tapır və Qərbin aparıcı dövlətlərinin rəhbərlərini tənqid edir ki, niyə Azərbaycanın dövlət başçısı ilə danışıqlar aparırlar. Baxın, onları narahat edən Azərbaycanın uğurlu xarici siyasətinin əldə etdiyi nailiyyətlərdir.

Bu dairələr Azərbaycan tərəfi Londonda əhəmiyyətli neft sazişi imzalayandan sonra fəallaşıblar. Onlara züy tutan sapı özümüzdən olan baltalar da şəxsi maraq izində olmaqla Azərbaycan dövlətini yaddan çıxararaq ağızlarını açıb gözlərini yumurlar. Düşmənlər təşvişə düşürlər ki, Azərbaycan yenə də uğurlu siyasət aparır və güclənir. Burada sabitlik və inkişaf vardır. Ona əngəl olmaq lazımdır. Milli dönüklər, antimilli ünsürlər isə arada nəsə əldə etməyi düşünür və çalışırlar ki, iftira kampaniyasında daha yaxından iştirak etsinlər. Onların qafalarını yalançı demokratiya ilə doldurublar ki, arxa planda düşmən maraqlarına xidmət edirlər.

Hazırkı vəziyyətin daha bir özəlliyi var. Böyük dövlətlər arasında nüfuz uğrunda mübarizə kəskinləşdikcə, onun digər ölkələrə təsiri artır. Bunun nəticəsində getdikcə daha çox ölkə özü də istəmədən siyasi, ideoloji, hərbi, informasiya mübarizəsinə qoşulur. Bu prosesdən salamat çıxmaq üçün ümumən cəmiyyətin birləşməsi, dövlət-xalq münasibətlərinin harmoniyası və milli birlik lazımdır. Çünki mübarizə hər tərəfdə aparılır. Müxtəlif üsullarla insanları çaşdırır, onları öz ölkələrinə qarşı qoymağa çalışırlar.

Bu o deməkdir ki, hər bir fərdin fəaliyyəti əhəmiyyət kəsb edir. Həmin səbəbdəndir ki, xaricdən Azərbaycan əleyhinə nəsə deyən hər hansı şəxs öz vicdanı, milləti və dövləti qarşısında məsuliyyət daşıyır. Hər bir vətəndaş öz mövqeyini dəqiq müəyyənləşdirməli və yerini düzgün seçməlidir.

Şübhə yoxdur ki, mübarizə bundan sonra da davam edəcək. Azərbaycan müstəqil və güclü dövlət kimi öz siyasətini daha da inkişaf etdirəcək. Prezident İlham Əliyevin təmkinli, ölçülü-biçili və milli xarakterli siyasəti yeni zirvələr fəth edəcək. Bu siyasət başqa mənfi hallarla yanaşı, erməni təxribatlarını da neytrallaşdıracaq. Azərbaycan mütləq tam qalib gələcək və müstəqil dövlət kimi yüksək inkişafa nail olacaq. Çünki Azərbaycan haqlıdır! Onun özünü müstəqil dövlət kimi inkişaf etdirməkdən başqa məqsədi yoxdur, kimsənin torpağına, yaxud sərvətinə göz dikməyib.

Ancaq bu gün düşmənlə bir sırada duran vətəndaşların taleyinin necə olacağı məlum deyil. Onların gələcək nəsillərin üzünə necə baxacaqları qaranlıqdır. Bu barədə də düşünmək gərəkdir. Siyasi mübarizə Vətəni, milləti və dövləti aşağılamaqla bir araya sığmır. Bu yolla gedən heç bir kəs hələ şərəf qazana bilməyib. Onların hamısının aqibəti eynidir: oyuncağa çevrilmək!

AŞPA və Helsinki Komissiyası kimi təşkilatlar isə öz etibarlarını itirirlər. İndi bir sıra ölkələr AŞPA-da fəaliyyət göstərməyin mənasızlığından bəhs edir, ikili standartlardan şikayətlidirlər. Deməli, vesternizasiya küləyi də zəifləyir. Avropa həqiqi mənada dünyanın demokratik lokomotivi ola bilmədi. Onun beynəlxalq aləmdə iddia etdiyi geosiyasi funksiyası ciddi zərərlər görməkdədir. Bu proses davam edərsə, Avropa tamamilə öz nüfuzunu itirmiş olacaq. Yəni bu gün iftira Azərbaycana atılırsa, sabah bu, Avropanın öz nüfuzuna bumeranq kimi qayıdacaq. Dünyada mövcud olma qaydası belədir!

**Newtimes.az**

# Ermənistanın işğalçı siyasəti beynəlxalq münasibətlər sistemi üçün arzuolunmaz ənənələrin təməlini qoyur

## *Bu fikir "Ermənistanın Cənubi Qafqazda etnik separatizm siyasəti və regionun təhlükəsizliyi" mövzusunda keçirilən beynəlxalq konfransda səsləndirilib*

***İyunun 8-də Bakıda Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) tərəfindən "Ermənistanın Cənubi Qafqazda etnik separatizm siyasəti və regionun təhlükəsizliyi" mövzusunda beynəlxalq konfrans keçirilib.***




AZƏRTAC xəbər verir ki, beynəlxalq konfransda dövlət rəsmiləri, Milli Məclisin deputatları Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların təmsilçiləri, QHT rəhbərləri iştirak ediblər.

Konfransda çıxış edən Azərbaycan Respublikası yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM sədri Rufiz Qonaqov bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün pozulması və bir milyondan çox məcburi köçkün həyatı yaşayan vətəndaşlarımızın hüquqlarının təmin edilməsi istiqamətində dünya birliyi ciddi qərarlar qəbul etməlidir. "Ermənistanın bu gün də davam etməkdə olan işğalçılıq siyasəti Cənubi Qafqaz regionuna ciddi təhdiddir. Ermənistanın Cənubi Qafqazda etnik separatizmi davam edir və bu da regionda təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Bütün səylərə baxmayaraq, Ermənistanın işğala son qoymaması regional və qlobal təhlükəsizlik sistemi üçün də ciddi təhdiddir. Ermənistanda baş verən son hakimiyyət dəyişikliyindən sonra prosesin normallaşmasına ümid var idi. Amma indiki rejimin də mahiyyəti özündən əvvəlkinə bənzəyir", - deyə R.Qonaqov deyib.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Ermənistanın Cənubi Qafqazda xalqların təhlükəsizliyinə qarşı davam etməkdə olan təhdid siyasətinin aradan qaldırılması istiqamətində region dövlətlərinin bir araya gəlməsinin vacibliyini vurğulayıb, beynəlxalq ictimaiyyətin ədalətsiz qərarlarına etirazını bildirib. Komitə sədri deyib: "Nə qədər ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən geri çəkilməyib, Cənubi Qafqazda xalqların dinc və birgə yaşaması məsələsi sual altında qalır. Həmçinin dünya birliyinin işğalçı tərəfin bu hərəkətlərinə etinasız münasibəti müasir beynəlxalq münasibətlər sistemi üçün arzuolunmaz ənənələrin təməlini qoyur".

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı danışıqlar prosesində vəziyyəti" mövzusunda məruzə ilə çıxış edib. H.Hacıyev bildirib ki, danışıqlar prosesi davam etdirilir, lakin Ermənistan tərəfinin ənənəvi separatizm siyasəti bu danışıqların effektivliyinə mane olur. "Ermənistanda hakimiyyət dəyişikliyi də bu prosesə hələ ki, öz töhfəsini verməyib. Azərbaycan sülh yolu ilə torpaqlarımızın azad olunmasının tərəfdarıdır və bunu dəfələrlə bildirmişik. Azərbaycan bütün səylərində Ermənistanı problemi danışıqlar yolu ilə həll etməyə çağırıb", - deyə Hikmət Hacıyev qeyd edib.

Milli Məclisin deputatı Elman Nəsirov "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yeni mərhələdə" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, bu proses illərdir davam edir. Ermənistandakı hakimiyyət dəyişikliyi prosesi müsbət istiqamətdə aparılmalıdır. Amma bunun nəticəsi görünmür. Deputat vurğulayıb ki, Ermənistan tərəfi bu münaqişə nəticəsində özünü pis duruma salıb və Ermənistanda faktiki olaraq, iqtisadi və siyasi böhran mövcuddur. Siyasi, iqtisadi, demoqrafik böhran Ermənistanı süquta aparır.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycan İcması İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri, professor Elçin Əhmədov "Ermənistanın Azərbaycana təcavüzü beynəlxalq münasibətlər sistemində" mövzusunda çıxış edib. O bildirib ki, 30 ilə yaxındır ərazilərimiz işğal olunub. Ermənistan BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməni yerinə yetirməkdən imtina edir. Müxtəlif beynəlxalq qurumlar və təşkilatlar, o cümlədən dünya dövlətləri tərəfindən Azərbaycanın ərazi bütövlüyünü tanıyan, Ermənistanın işğalını pisləyən bəyanatların verilməsinə baxmayaraq, Ermənistan geri çəkilmir və faktiki olaraq 20 faizdən çox ərazimizi işğal altında saxlayır.

Siyasi ekspert Rövşən Məmmədov isə "Cənubi Qafqaz regionu: erməni terrorunun doğurduğu real təhdidlər və tarixi həqiqətlər" mövzusunda məruzə edib. O bildirib ki, Ermənistanın işğalçılıq siyasəti keçmişdə də, indi də təkcə bizim üçün deyil, bütün region üçün təhdid olub və qalmaqda davam edir. İsrailli beynəlxalq ekspert Arye Qut isə "Erməni separatizmi və onun törətdiyi təhlükələr İsrail mətbuatında" mövzusunda konfrans iştirakçılarına məlumat verib. Siyasi ekspert bildirib ki, ermənilər hər zaman təxribatla məşğul olublar və öz siyasətlərini dünya tərəfindən qəbul etdirməyə də çalışıblar. İsrail mətbuatında ermənilərin məkrli niyyətlərini ifşa edən çoxsaylı yazılar və məqalələr dərc edilir. Qondarma erməni soyqırımı iddiası ilə bağlı da son zamanlar çoxlu yazılar dərc edilib və İsrail parlamenti bu soyqırımın tanınması ilə bağlı müraciəti öz gündəliyindən çıxarıb.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının məsul əməkdaşı Rasim Mirzəyev bu kimi beynəlxalq konfransların keçirilməsinin ölkəmizin və regionun təhlükəsizliyi baxımından əhəmiyyətindən danışıb. Rasim Mirzəyev Ermənistanın separatizm siyasətinin qarşısının alınması istiqamətində BMT qətnamələrinə diqqəti yönəldərək bildirib ki, Ermənistanın işğalçılıq siyasəti BMT-nin 4 qətnaməsində də öz əksini tapıb. Ermənistan beynəlxalq hüquqa əməl etməklə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməli, öz etnik separatizm əməllərindən imtina etməlidir. Ermənistanın faktiki işğal siyasəti region üçün böyük təhlükə, ciddi təhdid mənbəyidir. Sonra məruzələr ətrafında çıxışlar davam etdirilib. Tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları adından Ermənistanın Cənubi Qafqazda separatizm siyasəti və regionun təhlükəsizliyinə dair bəyanat qəbul edilib.

# Aydın Mirzəzadə: "Paşinyanın təsəvvürü, konkret proqramı yoxdur"

***"Nikol Paşinyan hakimiyyətə seçki yolu ilə deyil, küçə təzyiqi nəticəsində gəlib. Bu mənada, Paşinyan Ermənistanda güc və nüfuz sahiblərinə də xoş gəlmək üçün bir-birinə zidd bəyanatlar verir. Onun nə dövləti idarə etmək, nə də Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı təsəvvürü, konkret proqramı yoxdur". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.***



Millət vəkilinin sözlərinə görə, hal-hazırda Paşinyan Ermənistanın "Böyük Ermənistan" ideologiyasını bir qədər modernləşdirir və qoruyub saxlamağa çalışır: "Ancaq bununla belə zaman ötdükcə cəmiyyət bundan Sarkisyan rejiminin yaratdığı problemlərin həllini tələb edəcək. Amma indiki dövrdə biz hələki onun Sarkisyan rejiminin üz qabığını dəyişməklə mahiyyətini davam etdirmək istəyini görürük. Bu isə əlbəttə ki, Ermənistan üçün yeni problemlərin yaranmasına gətirib çıxaracaq. Bu baxımdan, Paşinyanın bundan sonra da öz siyasətində vaxtaşırı ziddiyyətli bəyanatlar verməsi tamamilə gözləniləndir. Həmçinin müəyyən zaman kəsiyində o Dağlıq Qarabağ məsələsinin tarixini, problematikasını bildikcə şübhəsiz ki, nə qədər ağır bir yükün altına girdiyini görəcək. O zaman Paşinyan bu iki yoldan birini seçməlidir.

Paşinyan ya beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır, ya da Ermənistanın ikinci Sarkisyanına çevrilməlidir. Bu halda isə küçədəki kütlə yeni bir Paşinyanı ortaya çıxaracaq. Çünki kütlə Paşinyana vəzifə vermək üçün küçəyə çıxmamışdı. O, ilk növbədə, Sarkisyanın apardığı siyasətin ağır nəticələrinə etiraz olaraq küçəyə çıxmışdı".

# “Qurtuluşdan Tərəqqiyə - 25 il” zona müşavirəsi keçirilib

***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Ucar şəhəri Heydər Əliyev Mərkəzində 15 İyun Milli Qurtuluş Günü münasibətilə “Qurtuluşdan Tərəqqiyə - 25 il” zona müşavirəsi keçirilib. Müşavirədə Yeni Azərbaycan Partiyası Ucar, Ağsu, Ağdaş, Göyçay, İsmayıllı, Kürdəmir, Qobustan, Şamaxı və Zərdab rayon təşkilatlarının gənclər birliklərinin nümayəndələri iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.***

Dövlət Himni səsləndirildikdən sonra müşavirəni giriş sözü ilə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, müstəqil dövlətimizin qurulmasında və möhkəmlənməsində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Hər bir xalqın tarixində onun müstəqillik və milli azadlıq uğrunda apardığı mübarizənin böyük rolu olduğunu qeyd edib.

Ş.Abdullayeva ölkədə ictimai-siyasi sabitliyə, məhz 1993-cü ildə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra nail olunduğunu vurğulayıb: “Ulu Öndərin bu müdrik addımı ölkədə sosial-iqtisadi və siyasi inkişafın əldə olunmasında, dövlətimizin möhkəmlənməsində və Azərbaycan dövlətçiliyinə yönəlmiş qəsdlərin qarşısını almasında böyük rol oynayıb. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi və ölkəni gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevirdi. Dahi Lider Heydər Əliyevin əsasını qoyduğu müdrik və uzaqgörən siyasət nəticəsində, bu gün Azərbaycanın regionda müstəqil, güclü dövlətə çevrildiyini söyləyən Ş.Abdullayeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndərin ideyalarının uğurlu davamçısı olduğunu bildirib”.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin “Qurtuluşdan Tərəqqiyə - 25 il” zona




YAP Kürdəmir rayon təşkilatı gənclər birliyinin üzvü Məhəmməd Heydərli, YAP Zərdab rayon təşkilatı gənclər birliyinin üzvü Leyla Eldarzadə, YAP Ağdaş rayon təşkilatı gənclər birliyinin sədri Anar Şahmuradov, YAP Qobustan rayon təşkilatı gənclər birliyinin üzvü Günel Əliyeva, YAP Ağsu rayon təşkilatı gənclər birliyinin sədri Elnur Fərzəlizadə, YAP Şamaxı rayon təşkilatı gənclər birliyinin sədri Bəşir Lazımov çıxış edərək, rayon təşkilatlarının, eləcə də, gənclər birliklərinin qarşısında duran vəzifələrdən danışıblar.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov bütün gəncləri Milli Qurtuluş Günü münasibətilə təbrik edərək, qurtuluşdan keçən 25 il ərzində Azərbaycan gəncliyinin inkişafında ölkə rəhbərinin, Yeni Azərbaycan Partiyasının gördüyü işlər haqqında ətraflı məlumat verərək, gələcəyimiz olan gənclə-



müşavirəsinə toplaşan gənclər öz çıxışlarında tarixi keçmişimizə bir daha nəzər salaraq, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşdiklərini bəyan ediblər.

YAP Göyçay rayon təşkilatı gənclər birliyinin sədri Aytən Nəbiyeva, YAP Ucar rayon təşkilatı gənclər birliyinin sədri Ceyhun Qəhrəmanov, YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin sədri Qönçə Ağazadə,

rə ümid bəslənildiyini vurğulayıb.Sonda Ucar şəhəri Heydər Əliyev Mərkəzinin qarşısında gənclərlə xatirə şəkli çəkdirilib.

**ZÜMRÜD**

## OPEC: Ötən il Azərbaycanda neftin emal həcmi gündəlik 120 min barrel olub

Keçən il Azərbaycan üzrə xam neftin emal həcmi sutkalıq 120 min barrel təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) illik statistik hesabatında deyilir. Ötən il Xəzəryanı ölkələrdən Rusiyanın gündəlik neft emalı həcmi 5 milyon 965 min barrel, İranın 1 milyon 901 min barrel, Qazaxıstanın isə 345 min barrel olub. Gündəlik neft emalı həcminə görə dünyada ilk sırada 18 milyon 413 min barrel ilə ABŞ, ikinci yerdə 12 milyon 889 min barrellə Çin, üçüncü sırada Rusiya (5,9 milyon barrel), dördüncü yerdə 4 milyon 722 min barrellə Hindistan, beşinci sırada isə 3 milyon 704 min barrel ilə Yaponiya qərarlaşıb. Dünyada sutkalıq neft emalı həcmi ən az olan ölkə 24 min barrellə Qabondur. Keçən il qlobal neft emalının həcmi gündəlik 96 milyon 931 min barrel olub. Bu həcmin 11,8 faizi, yəni sutkalıq 11 milyon 406 min barreli OPEC-ə üzv ölkələrin payına düşür. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv ölkələr üzrə gündəlik neft emalının həcmi 43 milyon 152 min barrel, keçmiş Sovet İttifaqına üzv ölkələrdə isə 8 milyon 462 min barrel olub.

## “ASAN xidmət”ə 22 milyonuncu müraciət qeydə alınıb

İyunun 8-də “ASAN xidmət”ə 22 milyonuncu vətəndaş müraciəti qeydə alınıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC -a bildiriblər ki, bu müraciət Bakı şəhər sakini Nigar Balakişiyeva tərəfindən edilib. O, 9-108 sifarişli Səyyar ASAN xidmətə müraciət edərək Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilən şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi xidmətindən yararlanıb. Nigar Balakişiyeva təşəkkürnamə və simvolik hədiyyələrlə mükafatlandırılıb. Qeyd edək ki, sosial həmrəyliyin təmin edilməsi məqsədi ilə səyyar xidmətlər kənardan qulluğa və yardıma ehtiyacı olan 1-ci qrup əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə səyyar xidmət haqqı ödənilmədən həyata keçirilir. Xidmətin sifarişi 9-108 nömrəli “Çağrı” mərkəzinə zəng etməklə və ya www.asan.gov.az saytı vasitəsilə mümkündür.





# YAP Yasamal rayon təşkilatında Milli Qurtuluş Günü qeyd olunub

Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında 15 iyun - Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev, YAP Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, millət vəkilləri, ziyalılar və KİV nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin YAP Yasamal rayon təşkilatının binasında yerləşən büstü önünə gül-çiçək dəstələri düzüblər. Sonra tədbir akt zalında Azərbaycan Dövlət Himninin səsləndirilməsindən sonra davam etdirilib.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov tədbiri giriş sözü ilə açaraq Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, müstəqil dövlətimizin qurulmasında və möhkəmlənməsində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Bildirib ki, o vaxt Azərbaycan xalqı təkidlə Ümummilli Liderin hakimiyyətə qayıdışını tələb edib. 1993-cü ilin iyun ayında ölkədə böhran ən acınacaqlı həddə çatmışdı. Həmin vaxt xalqı vətəndaş qarşıdurmasından, səfalətdən, ölkəni parçalanmaq təhlükəsindən xilas etmək gücündə olan bir insan - Heydər Əliyev xalqına və dövlətinə sahib çıxdı. Ulu Öndər uzaqgörən və müdrik siyasəti ilə xalqımızı və dövlətimizi düşdüyü ağır vəziyyətdən xilas etdi. Heydər Əliyev belə bir ağır məsuliyyəti üzərinə götürərək hakimiyyətə qayıtdı və Azərbaycan xalqını düçar olduğu böhranlı vəziyyətdən çıxardı".

Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov məhz Ulu Öndərin müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş qarşıdurmasına son qoyulduğunu, Azərbaycanın dövlət müstəqilliyinin məhv olmaq təhlükəsindən xilas edildiyini söyləyib. Ümummilli Liderin rəhbərliyi altında ölkədə ictimai-siyasi sabitliyin təmin olunduğu, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirildiyi, özbaşınalığın, hərc-mərcliyin, qanunsuzluqların, kütləvi iğtişaşların qarşısının alındığını vurğulayıb. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin qorunmasını, müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin edib. Bu tarixi gün müasir Azərbaycan dövlətçiliyinin xilası günüdür.

YAP Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildiyini və Ulu Öndərin böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdüyünü, bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurmanın səngidiyini, respublikamızın vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas olduğunu söyləyib. V.Rəhimzadə bu gün milli qurtuluş ideologiyasının təntənəsinin müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verdiyini, regionda və dünyada Azərbaycanın nüfuzunu daha da artırdığını qeyd edib.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev diqqətə çatdırıb ki, sovetlər birliyi dağılandan sonra müstəqillik qazanmış bir sıra dövlətlər hələ də problemlər içində çabalamaqda, asılı vəziyyətdə qalmaqdadır. Azərbaycan da 1993-cü ilin iyun ayınadək böyük problemlər yaşayan, ciddi sıxıntılar çəkən, xaos və özbaşınaqların hökm sürdüyü bir ölkə vəziyyətində idi. Belə bir şəraitdə Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı bütün bu problemlərə son qoydu, böyük və müdrik siyasət nəticəsində müstəqilliyimiz məhv olmaq təhlükəsindən qurtardı. 1993-cü ildə "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmişdir.

Sonra YAP Yasam rayon təşkilatının fəaliyyətində fərqlənən bir qrup insana fəxri fərmanlar təqdim olunub. Tədbirə bədii hissə ilə yekun vurulub.

## Ötən ay Naxçıvanda 200-dən çox işaxtaran işlə təmin olunub

Ötən ay muxtar respublikanın məşğulluq mərkəzləri tərəfindən 207 işaxtaran müxtəlif sahələrdə işlə təmin olunub. Onların 46-sı gənc, 47-si qadın, 8-i sağlamlıq imkanları məhdud şəxs, 6-sı isə ünvanlı sosial yardım təyini üçün müraciət edənlərdir. Həmçinin 31 nəfər ictimai, 36 nəfər isə mövsümi xarakterli müvəqqəti işlərə göndərilib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, əhalinin məşğulluğunun təmin edilməsi tədbirləri çərçivəsində uzun müddət ünvanlı dövlət sosial yardımı alan 9 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara, cəzaçəkmə müəssisəsindən azad edilmiş 1 şəxsə arı yeşiklərinin hazırlanması, 2 nəfərə isə fərdi xalçaçılıq sahəsi üçün zəruri avadanlıqlar verilib. Bundan başqa, kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, gözəllik salonu və dərzi sexlərində 5 bərbər-manikürçü və 1 dərzi işlə təmin edilib.

Məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyətli şəxslər üçün brayl əlifbası ilə "Könül işığı" adlı jurnalın növbəti nömrəsi çap olunub, audiokitabxana xidmətindən istifadə edən görmə məhdudiyyətli şəxslər tərəfindən 956 əsər dinlənilib.

# Bəhruz Quliyev: "Paşinyan pafosdan uzaq durmalı və imitasiyadan əl çəkməlidir"



***"Bu gün Azərbaycanın istər regionda, istərsə də beynəlxalq aləmdə tutduğu mövqeyi və əhəmiyyətli rolu ilk öncə onu təsdiq edir ki, ölkəmizdə mövcud olan dövlətçilik quruluşu, aparılan müstəqil siyasət bir çox ölkələrin özlərinə arzuladıqları bir reallıqdır". Bu fikirləri SİA-ya "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin çıxışını şərh edərkən deyib.***

Siyasi ekspert qeyd edib ki, dünyanın Azərbaycana etibarlı, ciddi tərəfdaş kimi baxması dövlətimizin son illərdə formalaşdırdığı imicinin bariz göstəricisidir: "Azərbaycan dünyanın qəbul etdiyi demokratik, inkişaf etmiş, iqtisadi potensialı yüksək, siyasi gücü, hərbi qüdrəti olan dövlət kimi bütün sahələrdə öz sözünü deməkdədir. Artıq ölkəmiz istər təşəbbüskar, istərsə də iştirakçı olaraq qlobal layihələrdə öncül yerini tutmaqdadır. Azərbaycanla müqayisədə isə Ermənistan terrora dəstək verən, eləcə də beynəlxalq hüquq normalarına məhəl qoymayan və geridə qalmış ölkə imicini qazanıb. Ona görə də Ermənistan beynəlxalq əhəmiyyətli layihələrdən təcrid vəziyyətindədir. Bu gün Azərbaycanla Ermənistanı müqayisə etdiyimizdə Prezidentin dediyi kimi, ortada nə qədər nəhəng bir fərqin olduğunu müşahidə edə bilərik. Ümumiyyətlə, cənab İlham Əliyevin çıxışını onun uzaqgörən siyasətinin məntiqi nəticəsi kimi də dəyərləndirə bilərik".

B.Quliyev məsələyə digər tərəfdən yanaşaraq bildirib ki, Serj Sarkisyanın başçılıq etdiyi quldur rejim getdi və onu "xalqın içindən çıxan" Nikol Paşinyan əvəzlədi: "Əgər indiki hakimiyyət, həqiqətən də, Ermənistanı illər uzunu düşdüyü batdaqdan xilas etmək istəyirsə, ritorik, ambisioz, iddialı fikirlərdən kənarda durmalı, gerçəkliyi dərk edib, doğru qərar verməyi bacarmalıdır. Yəni yeni hakimiyyətin ölkəni düşdüyü ağır vəziyyətdən çıxararaq dünyaya inteqrasiya etdirmək, demokratik və müstəqil quruluşunu bərpa etmək fikri varsa, pafosdan, süni imitasiyalarından əl çəkməlidir. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda danışıqlar masasına ciddi tərəf kimi oturmalıdır. Yəni, hazırkı hakimiyyət yenə də Serj Sarkisyanın sərsəm fikirləri ətrafında "bəyanatlar" verəcəksə, hərbi xunta rejiminin ideyalarını davam etdirəcəksə, bu zaman Ermənistan düşdüyü vəziyyətdən də acınacaqlı vəziyyətə düçar olacaq, məhvə doğru sürətlə sürüklənəcək. Paşinyan ciddi siyasətçi imicini formalaşdırmağa məcburdur, xüsusilə Azərbaycanın gücünü nəzərə almalıdır. Çünki o hakimiyyəti ələ aldıqdan sonra Azərbaycanın sərt və möhkəm silləsini görməmişdi. Təkcə, Naxçıvanda qüdrətli Ordumuzun hərbi istehkamlarını möhkəmləndirməsi, döyüş mövqeyində strateji nöqtələrinin bərkidilməsi artıq Ermənistanda ciddi təşviş yaradıb. Eləcə də erməni mətbuatı Azərbaycan Ordusunun gücü barədə müəyyən fikirlər dərc etməkdədir. Necə deyərlər, bu reallıq Paşinyana sadəcə, yüngül bir ismarıc idi. Ona görə də erməni ictimaiyyətinin təlaşa düşməsi faktını bu ölkənin yeni hakimiyyəti anlamalıdır. Onlar anlamalıdırlar ki, Azərbaycan işğal altındakı torpaqlarını hər an azad edə bilər".

Siyasi ekspert Azərbaycanın qüdrətinin yalnız Silahlı Qüvvələr kontekstində deyil, o cümlədən, regional siyasətdə də lider olduğunu bildirib və qeyd edib ki, Ermənistanın Avropaya münbit çıxışı yalnız ölkəmizlə konstruktiv dialoqdan keçir: "Məhz liderlik faktoru dediyimizdə bu amillər də nəzərə alınmalı, ölkəmizin təşəbbüskar və təşkilatçılıq fonundakı fəaliyyəti xüsusilə vurğulanmalıdır. Ölkə başçımız "Biz ardıcıl siyasət aparmaqla ərazimizin bütövlüyünü bərpa edəcəyik" fikirlərini də həmin istiqamətdə doğru yönəldib və Ermənistanın yeni hakimiyyətinə mesajını, tövsiyələrini çatdırıb. Təbii ki, Paşinyan bütün bunlar barədə düşünməli, pafosdan, imitasiyadan uzaq durmalı, real və ciddi şəkildə danışıqlara qatılmalı, Azərbaycan Prezidentinin tövsiyələri əsasında əvvəlki rejimin iddialarını, xülyalarını rədd etməlidir. Bütövlükdə götürəndə, Paşinyan bilməlidir ki, əgər o, Dağlıq Qarabağ separatçılarının danışıqlara tərəf kimi cəlb edilməli olduğunu iddia edirsə, onda "DQR"-in büdcəsinin formalaşmasında iştirakına, ordusunun Dağlıq Qarabağda mövcudluğuna son qoymalıdır. Yəni o, doğrudan da "DQR"in "müstəqil subyekt" olduğunu iddia edirsə, bu zaman Ermənistan qoşunlarını oradan çıxarmalı, Azərbaycanın Dağlıq Qarabağla təmaslarına mane olmamalıdır. Məhz bundan sonra Azərbaycan Dağlıq Qarabağla hər hansı danışıqlar apara və problemi həll edə bilər. Lakin bildiyimiz qədər, işğal faktı ortadadır və bu faktorun arxasında dayanan Ermənistan dövlətidir. Ona görə də Azərbaycan separatçı "DQR"lə deyil, yalnız Ermənistan tərəfi ilə danışıqlar apara bilər. Paşinyan məhz bu reallıqları dərk etməlidir. Çünki onun başqa bir çıxış yolu da yoxdur".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

9 iyun 2018-ci il

# Ukraynalı yazıçılar BSU-da olublar





Dünən Bakı Slavyan Universitetində çağdaş Ukrayna ədəbiyyatının tanınmış simaları Vladimir Danilenko və Nikolay Xomiçlə görüş olub. Görüşdən əvvəl qonaqları qəbul edən BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycanla Ukrayna arasında münasibətlərin qədim tarixə malik olduğunu bildirib. Ədəbiyyatın, sözün sərhədsiz olduğunu bildirən rektor Azərbaycanda böyük Ukrayna şairi Taras Şevçonkonun yaradıcılığına daim diqqət yetirildiyini və əsərlərinin dönə-dönə dilimizə çevrildiyini deyib. N.Əliyeva xalqlarımız arasındakı çoxəsrlik yaxın dostluq ənənəsinin bu gün də davam etdiyini, mədəniyyət, təhsil, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndiyini qeyd edib. Rektor qeyd edib ki, hazırda universitetdə Ukrayna dilini və ədəbiyyatını öyrənən tələbələrin bu dili mükəmməl öyrənmələri üçün Ukraynanın tanınmış universitetlərindən mütəxəssis müəllimlər dəvət olunur.

BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov isə BSU-nun Ukraynada fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərindən danışıb. O, Ukraynanın Kiyev Milli Linqvistik Universitetində, Poltava İqtisadiyyat və Ticarət Univeritetində, Çerniqov Milli Texnologiya Universitetində Azərbaycan mərkəzlərinin fəaliyyət göstərdiyini, həmin mərkəzlərdə ukraynalı gənclərə Azərbaycan dili və ədəbiyyatının öyrədildiyini bildirib. O, əlavə edib ki, 2008-ci ildə Kiyev Linqivistik Universitetində Ukraynca-Azərbaycanca, Azərbaycanca-Ukraynca danışıq kitabçası, 2014-cü ildə Ukraynanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə professorlar R.Novruzov və İ.Qasımovun hazırladığı "ukraynalı gənclər üçün Azərbaycan dili" adlı dərs vəsaiti, 2015-ci ildə "Azərbaycan-Ukrayna-rus-ingilis dillərində terminoloji lüğət" nəşr edilib. Bu il isə Ukrayna vətəndaşı İvan Pavliyin "Ukrayna bədii ədəbiyyatının Azərbaycan dilinə tərcüməsinin tarixi problemləri" mövzusunda dissertasiya müdafiə etdiyini qeyd edib.

Qonaqlar, öz növbələrində, BSU-da Ukrayna dilinə və mədəniyyətinə göstərilən diqqəti yüksək qiymətləndiriblər. Sonra ukraynalı yazıçılar BSU-ya gəlmələrinin səbəblərindən danışıblar. Ukraynanın çağdaş ədəbiyyatında öz sözünü demiş yazıçı Vladimir Danilenko "Qürub çağının işığında" və yazıçı Nikolay Xomiç "Sərdabənin sirri" kitabının Azərbaycan dilinə tərcümə olunmasını Azərbaycanda Ukrayna ədəbiyyatına verilən dəyərin göstəricisi kimi dəyərləndiriblər. Kitabların təqdimatının BSU-da geniş auditoriya qarşısında təşkil olunduğuna görə, professor N.Əliyevaya minnətdarlıq ediblər. Vladimir Danilenko qeyd edib ki, müəllifi olduğu "Qürub çağının işığında" adlı kitabda iki romanı və yeddi hekayəsi yer alıb. V. Danilenko kitabının Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi tərəfindən Azərbaycan dilinə yüksək peşəkarlıqla tərcümə olunduğunu diqqətə çatdırıb. Nikolay Xomiç "Sərdabənin sirri" tarixi romanından söz açaraq bildirib ki, bu roman Qərblə və Bizans sivilizasiyaları arasında seçim etmək məcburiyyətində qalan Ukrayna xalqının Kiyev Rus Dövləti zamanından bu günə qədər keçdiyi məşəqqətli yoldan və çəkdiyi müsibətlərdən bəhs edir.

Sonra ukraynalı ədiblər BSU-da ukrayna dili üzrə təhsil alan tələbələrlə görüşüblər. Görüş çərçivəsində Vladimir Danilenkonun və Nikolay Xomiçin kitablarının təqdimatı olub.

**ZÜMRÜD**

# 30 rayonda 45 aqroparkın yaradılması nəzərdə tutulub

Ölkəmizdə ərzaq təhlükəsizliyi və əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmini dövlətimizin qarşısında duran prioritet vəzifələrdən biridir. AZƏRTAC xəbər verir ki, bu sözləri Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Material Ehtiyatları Agentliyinin Dövlət Taxıl Fondu üzrə İdarəsinin rəisi Zülfüqar Məmmədov iyunun 8-də taxılın qəbulu ilə bağlı keçirilən mətbuat konfransında deyib.

Z.Məmmədov bildirib ki, ölkəmizin ərzaq təhlükəsizliyi baxımından idxaldan asılılığının minimuma endirilməsi xüsusi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, respublikanın 30 rayonunda 45 aqroparkın yaradılması nəzərdə tutulub. Hazırda onlardan artıq 4-ü - Yalama, Şəmkir, Cəlilabad və Goranboyda fəaliyyətə başlayıb. Bundan başqa, 119 min hektar sahədə əkin-biçin işləri aparılıb. Sözügedən sahələrdə müxtəlif bitkilərlə, o cümlədən buğdanın əkini ilə məşğul olurlar. Dövlətin buğda istehsalçılarına subsidiya verilməsi ilə bağlı fəaliyyətindən danışan Z.Məmmədov bildirib ki, yalnız buğda əkini ilə məşğul olan yerli istehsalçılara 40 faiz subsidiya verilib. Sahənin böyük strateji əhəmiyyətə malik olmasını nəzərə alaraq, gübrələrin 70 faizi güzəştli şərtlərlə verilir. İdarə rəisi diqqətə çatdırıb ki, FHN hər il ənənəvi olaraq taxıl biçininin başlanması ilə əlaqədar dövlət ərzaqlıq buğda ehtiyatının yaradılması üçün məlumatlar yayıb: "Fermerlərə öz məhsullarını daxili bazara çıxarmaq üçün şərait yaradılıb. Taxıl fondunun olması fermerlərə imkan verir ki, istehsal etdikləri yüksək keyfiyyətli taxıl məhsullarını asanlıqla tədarük məntəqələrinə yüksək qiymətlə verə bilsinlər".

Z.Məmmədov bu sahədə ortaya çıxan problemlərə də toxunub. O bildirib ki, uzun illərin müşahidəsi bizim yerli buğda istehsalçılarının buğdanın keyfiyyətinə az önəm verdiyini göstərir. Bəzi buğdanın keyfiyyət göstəriciləri qəbul olunmuş standartlara cavab vermir. Buna səbəb fermerlərin buğdanın becərilmə prosesi zamanı yol verdikləri yanlışlıqlardır. Bəzən istehsalçılar buğdanın becərmə prosesində ciddi nöqsanlara yol verirlər ki, bu da xəstəliyin yaranmasına gətirib çıxarır. Əsasən də bu dərmanlama prosesi ilə bağlı olur.



Təhmasib Novruzov

# *Dahiliyin HEYDƏR ƏLİYEV zirvəsi!*

***Zaman ən böyük hakimdir! Bunu dahilər deyib. Tarix çox böyük şəxsiyyətlər yetirib ki, onun böyüklüyü illər, on illər, bəzən isə bir neçə əsrlər sonra qəbul edilib. Öz dövründə daş-qalaq olunan, ölümə məhkum edilən saysız-hesabsız dahilər var ki, böyük bir zaman keçdikdən sonra onun dahiliyi danılmaz fakt olaraq təsdiqini tapıb.***

Ulu Öndər Heydər Əliyevin dahiliyi isə elə öz zamanında qəbul edildi. Əzilən, millətlər içində imzası olmayan, böyük güclərin təsir altında saxlamaq istədiyi, əsrlərlə yadların əsarətində yaşamağa məcbur edilən bir xalqı xilas edib də, əbədi və dönməz müstəqilliyi ona bəxş edən bir dühanın zamanında da, sonrakı dönəmlərdə də sevilməsi, adi şəxsiyyət yox, İlahi qüdrətin seçib göndərdiyi fövqəlinsan kimi qəbul edilməsi tamamilə təbiidir. Fəqət, Dahi Öndər Heydər Əliyev dahiliyinin hərtərəfli, bütün çalarları ilə anlaşılmasına yenə zaman gərəkir. Bu böyük azərbaycanlının həyatını, keçdiyi hamar olmayan yolu vərəqlədikcə, insan anlayır ki, Heydər Əliyev hər birimiz kimi, sadəcə, ana bətnindən doğulub dünyaya göz açan, adi insan kimi həyata gəlib, adi insan kimi yaşayan sıradan biri deyil. Bəzən bu adın qarşısında "seçilən" kəlməsi işlədilir. Hesab edirəm ki, Ulu Öndər Heydər Əliyev, sadəcə, seçilən deyil, İlahi varlıq tərəfindən göndərilən elə bir qüdrətdir ki, Onun böyüklüyünü olduğu kimi anlamaq hələ də bizlərə, adi insanlara nəsib deyil. Dahilərin heç də hamısı cəmiyyətin, bəşəriyyətin inkişafına mühüm töhfələr verməklə bu zirvəyə qalxmır. Söz sənəti ilə insanların beyinlərində bəşəri duyğular yaratmağa nail olan, musiqi sənətində qeyri-adi bəstələri ilə milyonların qəlbinə hakim kəsilən, memarlıqda yaratdığı möhtəşəm abidələri ilə min illərlə insanların qəlbində yaşayan, dünyanı gözəllik abidələri ilə işığa səsləyən, eynilə rəssamlıqda, elmdə və cəmiyyətin digər müxtəlif sahələrində zirvələr fəth edib, dahiliyə, ölməzliyə qovuşan minlərlə seçilmişlər gəlib-gedib qoca dünyada. Heç şübhə yoxdur ki, Ulu Öndər Heydər Əliyev gənc yaşlarından siyasəti deyil, istənilən digər sənəti seçmiş olsaydı, həmin sənətdə də bəşəriyyəti heyran edəcək dərəcədə böyük sənət möcüzələri yaradıb, dünyanın inkişafına öz sənət möhürünü vurardı. Lakin Onu bəxş edilən İlahi yüz illər boyu məşəqqətlərə düçar edilmiş qədim bir xalqın xilası missiyasına yönləndirdi. Yaşadığı həyatında dəfələrlə böyük təhlükələrlə üz-üzə qalan, hər birindən qələbə ilə çıxan, uca varlığın bəxş elədiyi qeyri-adi istedadını mənsub olduğu xalqın xilası və xoşbəxt gələcəyi naminə sərf edən, ahıl yaşlarında belə yorulmaq, usanmaq nə olduğunu bilməyən Heydər Əliyevin bütün zamanlarda İlahi bir qüdrət tərəfindən qorunması, Tanrının xalqımıza olan sevgisi ilə birbaşa bağlıdır. Məhz sevdiyi, bəşəriyyət üçün gərəkli hesab etdiyi toplumlara, millətlərə və xalqlara belə şəxsiyyətləri nəsib edir Ulu Tanrı! Bəşəriyyətin inkişafında xilaskarlıq missiyası ilə göndərilən dahilər çox olub. Əzən, qan tökən şeytan xislətlilərin qarşısında sipər olmaq, mənsub olduğu millətini, ümumən dünyanı xilas etmək naminə ömrünü şam kimi əridən dahilər tarix boyu olub və bundan sonra da olacaq. Lakin Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası onunla fərqlənir ki, bu gün dünyanın xəritəsində o qədər də böyük olmayan, torpağının altı da, üstü də qiymətli sərvət olan bir məmləkətin boyunduruq altında yaşamağa məhkum edilmiş sakinlərinin azadlıq istəklərini reallaşdırmaqla kifayətlənmədi, bu kiçik məmləkətin bəşəri xilaskarlıq missiyasının da bünövrəsini qoydu və onun inkişaf proqramını işləyib gələcək yollarımızın üstündə də mayak yandırdı. Məhz özünün müdrik kəlamı ilə desək, "Azərbaycan dünyaya günəş kimi doğdu!" İndiki dünya düzənində kiçik bir məmləkətin ümumbəşəri missiya yükünü çiyinlərinə götürüb, bu missiyanı uğurla davam etdirməsi möcüzəyə bənzər hadisədir. Lakin gerçəklikdir. Bu gerçəkliyi millətimizə bəxş edən, Tanrının göndərdiyi düha sahibi Heydər Əliyevdir. Ölməzlik və əbədiyaşarlıq qazanan Heydər Əliyev! Qayıdışın mübarək, ULU ÖNDƏR! Nə yaxşı ki, vardın, nə yaxşı ki, qayıtdın və nə yaxşı ki, Ulu Tanrı tərəfindən millətin qurtuluşu üçün göndərildin!..

# “Milli Qurtuluş Günü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biridir”





Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında 15 İyun Milli Qurtuluş Günü münasibətilə “Milli Qurtuluş Günü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biridir” mövzusunda tədbir keçirildi. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirib ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda cərəyan edən xaotik proseslər təsdiq edirdi ki, yalnız möhkəm siyasi iradəyə malik olan rəhbər ölkənin başının üstün almış bütün təhlükələrdən qurtara, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır missiyanın öhdəsindən gələ bilər: “O zaman iqtidarda olanların dövlət idarəçiliyindəki kobud səhvlərinin, məntiqi nəticəsi olaraq, ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, torpaqlarımızın itirildiyi, bir sözlə, Azərbaycanın dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqımızın Ümummilli Lider Heydər Əliyevə üz tutması təsadüfi deyildir. Çünki ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri yalnız böyük gücə malik lider aradan qaldıra bilərdi”.

Rayon təşkilatının sədri onu da bildirib ki, Azərbaycan xalqı birləşərək, ölkəni bürümüş acınacaqlı vəziyyətə qarşı məntiqli, iradəli gücünü ortaya qoyub, təkid və tələblə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışını irəli sürdü və Milli Qurtuluş Günü Azərbaycanı bürümüş olan fəlakətdən, xaosdan və böhrandan xilas etdi: “Həyata keçirilən uğurlu daxili və xarici siyasət, xalqın milli-mənəvi dəyərlərindən çıxış etməklə görülən işlər Ulu Öndər Heydər Əliyevi xalqımızın Ümummilli Liderinə çevirməklə bərabər, dövlətimizi də dünyanın qabaqcıl dövlətləri sırasına yüksəltdi. Bu gün əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ölkəmizin həyatında qazanılan uğurlar cəmiyyətin bütün sahələrini əhatə edib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, təşkilatçılığı və təşəbbüsü sayəsində qəbul olunan qərarlar, mühüm fərman və sərəncamlar bu uğurların başlıca təminatçısıdır”.

Tədbirdə çıxış edən YAP Masallı rayon təşkilatının siyasi şurasının üzvü Hikmət Xəlilov, rayon təşkilatının qadınlar şurasının sədri Gülşən Xəlilova, qadınlar şurasının üzvü Naibə Aslanova, Masallı rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Məmmədağa Şiriyev Milli Qurtuluş Günü münasibəti ilə təbriklərini çatdırıblar. Qeyd olunub ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra müstəqilliyimiz xilas oldu, dövlət və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirildi.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycan bu gün Hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında inkişaf edir, xalqımızın həyatı günü-gündən çiçəklənir. Bütün bunlara isə Azərbaycan xalqı 15 İyun Milli Qurtuluş günündə nail olub.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Beş ay ərzində 500-dək vətəndaş əlil arabası ilə təmin olunub



Beş ay ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi əlilliyi olan 500-dək vətəndaşı əlil arabası ilə təmin edib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təkcə son üç gündə 30 nəfərdən çox əlilliyi olan şəxsə müraciətlərinə uyğun olaraq əlil arabası təqdim olunub. Qeyd edək ki, əlil arabası əldə etmək üçün şəxsin müraciəti əsasında tibbi göstəriş ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən nazirliyin elektron informasiya sisteminə daxil edilir. Sistemdən alınmış həmin məlumat əsasında şəxsin əlil arabası ilə təminatı həyata keçirilir.

## Dövlət Miqrasiya Xidməti daha bir elektron xidməti istifadəyə verib

İyunun 8-dən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinin tələblərini pozmaları ilə bağlı ölkəmizin ərazisinə girişlərinə və ölkəmizdən çıxışlarına məhdudiyyət qoyulub-qoyulmamasını elektron qaydada öyrənə biləcəklər.

Dövlət Miqrasiya Xidmətindən (DMX) AZƏRTAC-a bildiriblər ki, qurumun rəsmi saytının (www.migration.gov.az) “Elektron xidmətlər” pəncərəsinə daxil olaraq “Ölkəyə gəliş və ölkədən gedişə məhdudiyyəti yoxla” bölməsini seçib, şəxsin adını, soyadını, doğum tarixini, pasportunun və ya digər sərhədkeçmə sənədinin nömrəsini və vətəndaşlığını daxil edib axtar düyməsini sıxmaqla bu barədə məlumat almaq olar. Yeniliyin məqsədi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəyə giriş və ölkədən çıxışları ilə bağlı rahatlıqlarının təmin olunması və şəffaflığın artırılmasıdır. DMX xidmət istifadəçilərinin məmnunluğunun artırılması və müasir innovasiyaların tətbiqi baxımından müvafiq tədbirləri davam etdirir.



**İLHAM**

## *Pul heç də yaxşı şey deyilmiş, amma...*

Bəşəriyyət yaranandan bu günə kimi insan olan varlıq ağır və ya yüngül olmasından asılı olmayaraq, hər cür əziyyətlərə qatlaşmaqla özünə ruzi əldə etməyə çalışır. Elə ki, var-dövlətin həcmi bir qədər çox oldu, insan olan kəs bir qədər fərqli düşünməyə və fikirləşməyə başlayır. Yəni var-dövlətilə yanaşı, mənsəb və mövqe sahibi olmağı da planlaşdırır. Bunun üçün bəzən başqalarının haqlarını və hüquqlarını pozmaqdan da çəkinmir. Nəticədə, ortaya əzən və əzilən təbəqə çıxır. Əzən xoşbəxtliyi pulda və var-dövlətdə görür. Ancaq dərk etmir ki, xoşbəxtliyin özü belə nisbidir. Çünki yaşadığımız cəmiyyətdə hər kəs xoşbəxtliyi müxtəlif mənalarda dərk edir. Kimisi xoşbəxtliyi gözəl iş şəraitində, cəmiyyətdə hörmət-izzət sahibi olmasında, başqa birisi isə ailəsində xoşbəxtliyin, firavan yaşayışın təmin edilməsində, digərləri isə tarixə öz adını yazdırmaqda dərk edir. Reallıqda isə hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, hər nə olursa-olsun, ilk öncə sağlam düşüncəyə, aydın təfəkkürə, həm də dünya görüşünə malik olmaq lazımdır. Pul isə insan üçün el deyimi ilə desək, sadəcə, əl çirkindən başqa bir şey deyil. Bu gün var, sabah olmaya da bilər. Əsas odur ki, sağlam ömür sürəsən və bu ömründə ətrafında olanlara, həm də cəmiyyətə xeyir verəsən. Pula aludəçilik ciddi fəsadların yaranmasına gətirib çıxara bilər. O mənada ki, əliəyrilik, yalan danışmaq, oğurluq, talançılıq, bir sözlə, qeyri-qanuni əməllər baş verə bilər. Artur Şopenhauer deyirdi ki, “pul dəniz suyuna bənzəyir, nə qədər çox içsən o qədər çox susayarsan”. Dində də deyilir ki, “insanlara dağlar və dəryalar qədər var-dövlət, qızı vverilsə, yenə də gözü doymaz”. Tarixdə mövcud olmuş böyük fatehlər də, var-dövlət sahibi olmaq üçün ölkələr viran qoyub, milyonlarla insan öldürüblər. Alimlərin gəldiyi qənaətə görə, bəşəriyyət yaranandan bu günə kimi dünya tarixində 14 min 500 müharibə baş verib. Həmin müharibələrin böyük əksəriyyəti başqa xalqların, dövlətlərin sərvətini əldə etmək üçün edilib. Bu gün etiraf olunmasa da, reallıq budur ki, ABŞ-ın İraqa hücumunun arxasında, ilk növbədə, bu dövlətin sərvətlərini əldə etmək olmuşdu. Fransa BMT Təhlükəsizlik Şurasının 1974 saylı qətnaməsinin qəbulundan 2 saat sonra Liviyanı qan gölünə çevirməsinin əsas kökündə Qəddafinin sərvətinə yiyələnmək dayanmışdır.

Dünyanın ən varlı insanlarından olan “Mikrosoft” şirkətinin sahibi Bill Qeyts (sərvəti 79,3 milyard ABŞ dolları), meksikalı investor Karlos Slim Elu ( sərvəti 76,4 milyard dollar), “Berkshire Hathavay” şirkətinin sahibi Uorren Baffet (sərvəti 72,3 milyard dollar) və digərləri də var-dövlətlərini başqalarının zəhmətini və əməyini mənimsəməklə əldə ediblər. Loru dildə desək, istər müharibələri törədənlər, istərsə də, başqalarının əməyini istismar edərək, milyardlar qazananların şeytanları güclü olub. İblislərlə yaxşı əməkdaşlıq ediblər. Məlumdur ki, şeytanın əsas fəaliyyəti yaxşı ilə pisi, haqla ədalətsizliyi müəyyənləşdirməkdir. Bu baxımdan, demək olar ki, insan üçün ən arzuolunmaz rəqib elə şeytanın özüdür. Çünki şeytan insanı yaxşı tanıdığı üçün, onun ən zəif cəhətlərini də bilir. Quranda buyurulur: “Şübhəsiz ki, o (şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər”.

Amma gəlin razılaşaq ki, insan olan kəs, bəzən bu səpkili məsləhətləri, dini kitablarda yazılan tövsiyələri qulaqardına vurur. Əlinə fürsət düşən kimi, çapıb-talamağa, oğurluq etməyə girişir. Adını da qoyur ki, məsləhət, tövsiyə elə mənə qalıb. Sonra da gubbuldadır ki, kasıbam, o qədər almalı-verməli arzularım var ki. Bu yerdə adamın yadına şairin bir bəndi düşür:

Kasıb, gecə puldan ötrü yatmayır,
Arzuları vardı, ona çatmayır,
Çox axtarır, kasıb pulu tapmayır,
Kasıbla düşməndir köpək oğlunun pulu,
Gör necə şeytandır, köpək oğlunun pulu.

Belə, pul yazılanlara və deyilənlərə əsasən, demək olar ki, heç də yaxşı şey deyil. Amma ailədaxili maddi ehtiyacların ödənilməsi və qonşudan qalma geri prinsipinə uyğun olaraq müəyyən ev, maşın, villa, banka depozit qoymaq ....... deyəsən, siyahı çox uzandı.

# Erməni inqilabının "çırağı" necə sönür?

## *Paşinyanın Qarabağ bəyanatları Ermənistanı daha ağır vəziyyətə doğru sürükləyir*

***Ermənistanda kritik vəziyyətin daha da dərinləşməsi, quldur Sarkisyan rejimini əvəzləyən naşı Paşinyan sindromu ilə müşahidə olunmaqdadır. "Məxməri inqilab" yolu ilə formalaşdırılan, daha dəqiqi, formalaşdırılması ağır şəkildə gedən yeni hökumətin qurulması prosesi digər nüansları da üzə çıxarır. Çünki fakt budur ki, Nikol Paşinyan uzun illərdir yığılıb qalmış həm siyasi, həm iqtisadi, həm də sosial problemləri həll etmək iqtidarında olmadığını hər addımında nümayiş etdirməkdədir.***



Xüsusilə, Dağlıq Qarabağ məsələsində onun tərəfindən səslənən "ideyalar" beynəlxalq hüquq normalarının heç birinə cavab verməməklə yanaşı, qondarma "DQR"in danışıqlar prosesinə cəlb edilməsi tələbi, ümumiyyətlə, heç bir məntiqə sığmır. Görünür, təcrid olunmuş Ermənistanın daha ağır vəziyyətə sürüklənəcəyindən xəbərsiz olan Paşinyan bunun ağır nəticələrini təsəvvüründə canlandıra bilmir.

Ermənistanın baş naziri N.Paşinyan Rusiyanın xarici işlər naziri S.Lavrovla görüşündə bildirib ki, hüquqi və mənəvi baxımdan, onun Dağlıq Qarabağın adından Azərbaycanla danışıqlar aparmağa haqqı yoxdur. Əsas arqument kimi, o, "DQR"-in parlamenti, prezidenti və hökuməti olan müstəqil ölkə" olduğunu; onun baş nazir seçilməsində Dağlıq Qarabağ ermənilərinin iştirak etmədiyi barədə iddialar irəli sürüb. Paşinyan deyir ki, Dağlıq Qarabağdan çıxan azərbaycanlılar Azərbaycan vətəndaşlığını qəbul ediblər, Azərbaycan Prezidentinin seçilməsində iştirak edirlər və buna görə də, Azərbaycanın dövlət başçısı onların adından danışa bilər. Paşinyan bildirib ki, Azərbaycanla danışıqları davam etdirə bilər, ancaq bunun üçün əldə olunmuş razılaşmalara riayət etmək lazımdır. Paşinyan iddia edir ki, Azərbaycan tərəfinin vəziyyəti gərginləşdirmək cəhdinə Ermənistan ölümcül zərbə ilə cavab verəcək. Əlbəttə ki, N.Paşinyanın bu iddiaları, sadəcə, blefdir və söz yox ki, bu gün Ermənistan hələ də 2016-cı ilin aprel xofunu yaşamaqdadır. Yəni aprel hadisələri aydın göstərdi ki, məhz Azərbaycan tərəfi ölümcül zərbə vurmaq iqtidarında və gücündədir. Halbuki...

### Paşinyan bu sualları cavablandırmalıdır!

Dağlıq Qarabağ separatçılarının danışıqlar prosesinə qatılmalı olduqlarını iddia edən Paşinyan, belə olan halda, bəzi suallara cavab verməlidir. Misal üçün, nəyə görə Dağlıq Qarabağda Ermənistanın hərbi hissələri yerləşir, Ermənistan vətəndaşları orada hərbi xidmət keçir, Dağlıq Qarabağ, faktiki olaraq, Ermənistan ordusu tərəfindən qorunur? Hansı səbəbdən, "DQR"-in büdcəsinin formalaşmasında və təchizatında Ermənistan iştirak edir?

Yaxud "DQR" "müstəqil subyektdirsə", onda Ermənistan qoşunlarını oradan çıxarsın, Azərbaycanın Dağlıq Qarabağla təmaslarına mane olmasın. Ondan sonra Azərbaycan tərəfi Dağlıq Qarabağla hər hansı danışıqlar apara və problemi həll edə bilər. Belə ki, ortada işğal faktı varsa, Azərbaycan Ermənistanla danışıqlar masasına otura bilər.

Həmçinin, Paşinyan Dağlıq Qarabağdan qovulan azərbaycanlıların Azərbaycan vətəndaşı olması barədə iddia irəli sürür. Dağlıq Qarabağ dünya birliyi tərəfindən tanınan Azərbaycan ərazisidir və millətindən və dinindən asılı olmayaraq, orada yaşayan insanlar da Azərbaycan vətəndaşlarıdır.

25 ildir öz yurd-yuvalarından didərgin düşən bu insanlar harada və hansı statusda yaşamalıydılar? Məgər Paşinyan bu insanların hansı proseslərin qurbanı olduqlarını bilmirmi? Çox yəqin ki, Paşinyan bu sualların cavabını verməyə məhkumdur!

### Paşinyan danışıqlar formatını dəyişdirmək və Ermənistana sərf edən formada danışıqlara getmək niyyətində olsa belə...

N.Paşinyan danışıqlar formatını dəyişdirmək və Ermənistana sərf edən formada danışıqlara getmək niyyətində olsa belə, heç nəyə nail olmaq gücündə deyil. Çünki onun çıxışları və iddiaları səmimi deyil və beynəlxalq auditoriyaya hesablanıb. Paşinyan danışıqlar prosesinin real vəziyyəti haqqında tam məlumatlı deyil. Onun verdiyi bəyanatlar inqilab dalğasında hakimiyyətə gəlmiş birisinin daxili auditoriyanın qarşısında islamını itirməmək məqsədi daşıyır. Eləcə də, Paşinyanın ölkə daxilində qanunçuluğu bərpa edəcəyi, "sehrli çubuqla" hər şeyi öz yoluna qoyacağı barədə iddiaları onun dövlət idarəçiliyində hələ çox təcrübəsiz olduğunun göstəricisidir. Beləliklə, bu, Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı formalaşmış formata, ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyinə hörmətsizliyidir.

### Koçaryan-Sarkisyan kriminal rejimləri, hətta onların din adamları erməni xalqının güllələnməsində maraqlı olublar!

Xatırlatmaq yerinə düşərdi ki, Paşinyana qədər mövcud olmuş Sarkisyan-Koçaryan kriminal cütlüyü, nəinki beynəlxalq konvensiyalara, heç sadə erməni xalqına da hörmət göstərməyib. Yəni quldur rejim təkcə Azərbaycan xalqına qarşı deyil, erməni xalqına qarşı da çoxsaylı cinayətlər törədib. Misal üçün, 2008-ci il martın 1-də Ermənistanda seçki saxtakarlığına qarşı əhalinin dinc etiraz aksiyasının dağıdılması, insanların güllələbaran edilməsi və nəticədə, 10 nəfərin qətlə yetirilməsi, bilavasitə R.Koçaryanın öz xalqına qarşı cinayətidir. Koçaryan-Sarkisyan cütlüyü bu illər ərzində Ermənistanda qanunsuzluğun hökm sürməsi, insan haqlarının kobud surətdə pozulması, iqtisadiyyatın hakim Qarabağ klanı tərəfindən mənimsənilməsi, Ermənistanda sosial və iqtisadi durumun acınacaqlı vəziyyətə düşməsi, insanların bu ölkədən baş götürüb getməsinə görə birbaşa məsuliyyət daşıyır.

Hətta Ermənistanın kriminal və quldur rejimini erməni kilsəsi də dəstəkləyib. Misal üçün, Katolikos II Qaregin 2008-ci il martın birində dinc etiraz aksiyasının güllələbaran edilməsində birbaşa məsuliyyət daşıyır. O, Ermənistanın o vaxtkı hakimiyyətinə belə cinayətkar addım atmaq üçün öz razılığını və xeyir-duasını verib. Bu baxımdan, Katolikos erməni xalqının bəlalarında heç də Sarkisyan və Koçaryandan az cavabdeh deyil. İşğalçılıq ideologiyasının, qondarma soyqırımı iddialarının əsas ilhamvericilərindən biri də, məhz odur!

### Azərbaycan Ordusunun Naxçıvan istiqamətində mövqelərini möhkəmləndirməsi bu ölkənin ciddi şəkildə təlaş keçirməyindən xəbər verməkdədir

Onu da qeyd edək ki, bir neçə gün əvvəl Naxçıvan istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin öz mövqelərini möhkəmləndirməsi buna ilkin sübutdur. Bu proseslər əsnasında Ermənistan KİV-lərinin son günlər tirajladığı yazılarından, politoloq və ekspert rəylərindən də anlaşılan odur ki, Azərbaycan Ordusunun Naxçıvan istiqamətində mövqelərini möhkəmləndirməsi bu ölkənin ciddi şəkildə təlaş keçirməyindən xəbər verməkdədir.

Digər tərəfdən, Prezident İlham Əliyevin Ramazan ayı ilə bağlı verilən iftar süfrəsindəki çıxışında Onun Dağlıq Qarabağ probleminin həlli ilə bağlı səsləndirdiyi fikirlərindən də aydın olur ki, işğalçı ölkənin yeni hakimiyyəti reallığı dərk etməlidir. Əks halda, Ermənistanı daha böyük və acınacaqlı vəziyyət gözləyə bilər. Hələlik, Nikol Paşinyan siyasi imitasiya və bleflə məşğuldur. Yəni onun özü də yaxşı bilir ki, danışıqlara Qarabağ separatçılarının da cəlb edilməsi mümkün deyil və təklifi keçməyəcək. Beləliklə, görünən budur ki, Paşinyanın hakimiyyəti çox zəifdir və demək olar ki, naşılığı ilə bir tükdən asılı qalıb. Bu baxımdan, o, Azərbaycan Prezidentinin çıxışından tezislər çıxarmalı və ağılla hərəkət etməlidir. Mövcud vəziyyət də, ona bu diktəni etməkdədir.

*Rövşən RƏSULOV*

# Bako Saakyanı Serj Sarkisyanın faciəvi aqibəti gözləyir

Son günlər Azərbaycanın işğal edilən Dağlıq Qarabağ bölgəsində ermənilər arasında hərbi xuntaya qarşı etirazlar başlayıb. Bəzi yerlərdə artıq separatçı rejimlə əhali arasında ciddi toqquşmalar da baş verib. Bəzi siyasi ekspertlər Dağlıq Qarabağda baş verənlərin Ermənistanın yeni baş naziri Nikol Paşinyanın separatçı rejimi dəyişmək üçün atdığı hansısa bir addım kimi dəyərləndirirlər. Söhbət etdiyimiz müsahiblərimiz də bu amili istisna etmədilər.



### Politoloq Qabil Hüseynli:

- Şübhəsiz ki, qondarma Dağlıq Qarabağ rejimində iğtişaşlar və kütləvi etiraz aksiyalarının başlanılması Paşinyanın separatçı rejimi dəyişmək üçün atdığı bir addımdır. Bundan əvvəl başlanılan hərəkatı keçmiş sabiq prezident Ter-Petrosyan dayandırdı, Paşinyana və S.Sarkisyana müraciət edərək, burada İrəvandakı hadisələrə bənzər hadisələrin təkrarlanmasının faciəvi olacağını söylədi. Faciəvi deyəndə, o Azərbaycan Ordusunun hücum edə biləcəyini nəzərdə tutmuşdu. Nəticədə, gözlənilən qarşıdurma dayandırıldı. Amma bu dəfə, düşünürəm ki, insanlar B.Saakyanın qurduğu rejimdən cana doyublar. İrəvanın hərbi kontingenti ordadır və hər şeyə nəzarət edir. Qondarma Saakyanın hərbi xuntası dövründə insanların maddi durumu çox pisləşib və əhali dilənçi vəziyyətində yaşayır. Bu baxımdan, insanlar ayağa qalxır. Bir sözlə, son nəticədə, mütləq Xankəndidə hakimiyyət dəyişikliyi baş verəcək və Paşinyan hakimiyyətini möhkəmləndirmək üçün Qarabağ klanına sarsıdıcı zərbə vurmağa çalışacaq.

### Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:



- Azərbaycanın işğal altında olan ərazilərində mövcud siyasi hakimiyyətə qarşı aksiyalar Qarabağda yaşayan ermənilərin nə qədər acınacaqlı durumda yaşadıqlarının təzahürüdür. Cinayətkar Serj Sarkisyanın yaratmış olduğu cinayətkar siyasi rəhbərliyin əlində, faktiki olaraq, Qarabağda yaşayan erməni əhalisi girova çevrilibdir. Bu cinayətkar siyasi hakimiyyət zaman-zaman öz çirkin niyyətlərini Dağlıq Qarabağda və ətraf rayonlarda həyata keçiribdir. Biz, hər zaman bəyan etmişik ki, öz torpaqlarımızı işğaldan azad edəcəyik və faktiki olaraq, cinayətkar siyasi hakimiyyətin əsarətində olan və Azərbaycan vətəndaşları olan Qarabağda yaşayan erməni xalqını da həmin cinayətkar hərbi xuntanın əsarətindən azad edib, birgəyaşayışı təmin edəcəyik. Düzdür, hələ bu narazılıqlar və aksiyalar oradakı erməni əhalisinin özü tərəfindən idarə olunmur və burada, şübhə etmirəm ki, Nikol Paşinyanın və beynəlxalq erməni lobbisinin birbaşa rolu vardır. Bako Saakyan, faktiki olaraq, Sarkisyan rejiminin yetirməsidir və hazırkı hakimiyyət üçün arzu olunan şəxs deyildir və o səbəbdən də, onu devirməklə hazırkı siyasi hakimiyyət öz adamını hakimiyyətə gətirməyi hədəf götürmüşdür. Hazırda Qarabağda yaşayan xalqın narazılığının təkcə separatçı rejimə deyil, birbaşa Ermənistanın özünə qarşı çevrilməsinə inanmıram. Baxmayaraq ki, orada ermənilərin həyat şəraiti, dolanışığı acınacaqlıdır, faktiki olaraq, istismar edilir, heç bir demokratiyadan, azadlıqdan danışmaq belə mümkün deyildir, amma vəziyyətin nəzarətdən çıxmasına inanmıram ki, erməni lobbisi imkan versin. Sadəcə, vəziyyət gərginləşəcəyi təqdirdə, biz məqamı düzgün idarə etməliyik. Hərbi, kriminal, quldur rejimin əlindən və daşnak-erməni lobbisinin əsarətindən Qarabağdakı erməni əhalisini də azad etməliyik, ədaləti bərpa edib öz faktiki ərazilərimizdə qanunlarımızın təmin edilməsinə nail olmalıyıq. Fikirləşirəm ki, Azərbaycan dövləti bu məqamda daha çevik və düşünülmüş addım atmalıdır və bütün beynəlxalq hüququn imkanlarını işə salaraq, dünya birliyi tərəfindən qəbul edilən ərazilərinə nəzarətin bərpası istiqamətində fəaliyyətini gücləndirməlidir. Hətta bu məqamda hərbi gücün tətbiqi də faydalı ola bilər.

*GÜLYANƏ*

# Azərbaycanda demokratik dəyişikliklər beynəlxalq aləm üçün nümunəyə çevrilib

## Son 15 ildə insan hüquq və azadlıqların təmin olunması istiqamətində yüksək nailiyyətlər əldə olunub

***Azərbaycanda hüquqi və demokratik islahatlar prosesində diqqət çəkən başlıca məqamlardan biri də insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin olunmasıdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qeyd olunur ki, “hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır, heç kəs insan ləyaqətini alçaldan alçaldıcı və qeyri-insani cəza və işgəncələrə məruz qala bilməz. Hər bir insan onun harada olmasından asılı olmayaraq, hüquq subyekti hesab olunur və bütün insanlar qanun qarşısında bərabərdir və qanunlarla eyni dərəcədə müdafiə olunurlar”. Azərbaycan Respublikasının Konstitusiyanın 25-ci maddəsinin III bəndinə görə, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.***

Konstitusiyanın 44-cü maddəsinə əsasən, “Hər kəsin milli mənsubiyyətini qoruyub-saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz”. Eyni zamanda, Əsas Qanunun 45-ci maddəsində deyilir: “Hər kəsin ana dilindən istifadə etmək hüququ, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz”.

Konstitusiyanın 47-ci, 48-ci, 49-cu və 58-ci maddələrində Azərbaycan Respublikası ərazisində yaşayan şəxslərin “Fikir və söz azadlığı”, “Vicdan azadlığı”, “Sərbəst toplaşmaq azadlığı” və “Birləşmək hüququ” təsbit edilmişdir. Həmin müddəalarda şəxsin etnik mənsubiyyətindən asılı olaraq, hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır. Ulu Öndər Heydər Əliyev hələ konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

### İnsan hüquqlarının müdafiəsi sahəsində tarixi mərhələ

Azərbaycan Respublikası 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nda “İnsan Hüquqları haqqında Ümumi Bəyannamə”yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür. Azərbaycan Respublikası 21 iyul 1992-ci ildə “İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt” və “Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt”a, 2001-ci ilin dekabr ayının 25-də isə “Əsas hüquqların və azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasına qoşulmuşdur. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Dahi Öndərimiz Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Ulu Öndər demokratik-hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunub. Proqram insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Belə ki, bu məqsədlə proqram çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilir. Bundan əlavə, ölkəmizin Avropa Şurasına üzvlüyü ərəfəsində qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyası ilə müqayisəli təhlili aparılır.



“İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Haqları Konvensiyası, 1950) Avropa Şurası üzvü olan ölkələr üçün əsas normativ-hüquqi aktlardan biridir. Azərbaycan bu konvensiyanı 2001-ci ilin dekabr ayında ratifikasiya edib. 2002-ci il aprelin 15-dən Konvensiya Azərbaycan ərazisində qüvvəyə minib (işğal edilmiş ərazilər istisna olmaqla). Bununla, Azərbaycan Konvensiyanın və onun protokollarının verdiyi haqları, o cümlədən, hər kəsin ifadə azadlığını öz yurisdiksiyası altında olan ərazilərdə təmin edəcəyi barədə öhdəlik götürüb, Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasını, deməli, həm də Konvensiya ilə bağlı məhkəmənin presedent hüququnun ölkə daxilində tətbiq edildiyini qəbul edib.

### Bu günə qədər 64 əfv, 12 amnistiya Sərəncamı imzalanıb

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da, məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Bununla bağlı ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsində qanunçuluğun artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üçün genişmiqyaslı tədbirlər görülmüşdür. Belə islahatların məntiqi davamı olaraq, dövlət başçısının 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Ümummilli Lider Heydər Əliyevin strategiyasına sadiq olan Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nı təsdiq etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə, ənənəvi olaraq, mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan Hüquqları Aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə, mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir. Hər bir demokratik cəmiyyətdə insan hüquqlarının qorunması və demokratikləşmə bu sahədə fəaliyyət göstərən təsisatların quruculuğuna, aidiyyəti problemlərin həllinə və zorakılığın qarşısının alınmasına yönəlmiş davamlı bir proses kimi dərk edilir. İnsan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya Qanunu, Seçki Məcəlləsi, “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Siyasi partiyalar haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Dini etiqad azadlığı haqqında”, “İnformasiya əldə etmək haqqında”, “Məlumat azadlığı haqqında”, “Gender bərabərliyinin təminatları haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” və digər qanunlar qəbul edilmişdir. Bu aktların mövcud beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Azərbaycanın hakimiyyət orqanları beynəlxalq təşkilatlar, xüsusən, Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və digər nüfuzlu təşkilatlar ilə sıx əməkdaşlıq etmişlər. Göstərilən məcəllə və qanunlar yalnız həmin təşkilatların müsbət rəyi alındıqdan sonra parlamentin müzakirəsinə çıxarılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan və Milli Məclis tərəfindən qəbul edilən qanunlar, eləcə də, Prezidentin imzaladığı sərəncam və fərmanlar Azərbaycanda hüquq və azadlıqların tam təmin olunduğunu göstərir. Bu günlər Respublika Günü münasibəti ilə Prezident İlham Əliyevin azadlıqdan məhrum olunmuş 634 nəfəri əfv etməsi barədə imzaladığı Sərəncam insan azadlıqlarına verilən növbəti dəyərin nəticəsidir. Ümumilikdə isə, 1995-ci ildən bu günə qədər Azərbaycanda 64 əfv Sərəncamı imzalanıb. Məlumata görə, əfv sərəncamları ilə, ümumilikdə, 7542 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. 2017-ci ildə qəbul edilən Amnistiya Aktı ilə 11 min nəfərə şamil olunub. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin bu istiqamətdə düzgün və məqsədyönlü siyasət aparmasının müsbət bəhrəsidir. Bir sözlə, birmənalı şəkildə onu demək olar ki, bu gün Azərbaycanda insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsipi prioritet istiqamət təşkil edir. Bunun da kökündə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasətin dönməzliyinin və davamlığının ölkə Prezidenti İlham Əliyev tərəfindən təmin etməsi dayanır.

***Mahirə Cəfərova***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsi üçün.*

# Müsavatdan daha bir sensasion istefa olacaq

*Yaxud Vasif Sadıqbəylinin gedişi kimlərin yolunu açdı?*



Müsavatın məclis üzvü Vasif Sadıqbəylinin partiyadan istefasının ardınca, başqan Arif Hacılını ittiham etməsi və siyasi təşkilatdan növbəti istefaların olacağına işarə vurması, artıq bütün kartların açıldığını göstərir. Belə ki, növbəti sensasion istefanın hazırda Müsavatın icra aparatının rəhbəri olan Gülağa Aslanlı tərəfindən veriləcəyi istisna edilmir. Bu barədə partiyaya yaxınlığı ilə seçilən mənbə bildirib və V.Sadıqbəylinin Qubad İbadoğlunun rəhbərlik etdiyi "Azərbaycan Demokratiya və Rifah" hərəkatına tranfer olunacağı ehtimalının əsasında da bu amilin dayandığı bildirilir. Daha dəqiq desək, Q.İbadoğlu hələ Müsavat partiyasında iqtisadi məsələlər üzrə komissiya sədri postunu tutarkən, tez-tez xarici ölkələrə səfər etməklə, müxtəlif qrant layihələrini reallaşdıraraq, bu gün onun hərəkatında yanında olan şəxslərə müəyyən məbləğlər ödəyib. V.Sadıqbəyli də həmin qrantlardan mükafatını alıb və indi həmin qrantların əvəzini Müsavatdan istefası ilə çıxır.

### Gülağa Aslanlı vaxtilə Qubad İbadoğlunun qrant layihələrindən bəhrələnib

Əbəs deyil ki, Q.İbadoğlunun Müsavatdan istefası baş verər-verməz, digər başqanın keçmiş müavinləri - Səxavət Əlisoy, Vurğun Əyyub, partiyanın qadınlar birliyinin keçmiş sədri Ellada Məmmədli dərhal bu addımı təkrarladılar. Məhz bu amil də, belə deməyə zəmin yaradır ki, onlar Q.İbadoğlunun qrant layihələrindən kifayət qədər yararlanıblar və hazırda "ADR" hərəkatında təmsil olunurlar.

G.Aslanlıya gəlincə, onun özü də Q.İbadoğlunun, necə deyərlər, "əliaçıqlığından" pay alıb, qrant layihələrini reallaşdırmaqda yardımçı olub və maliyyələrdən bəhrələnib. Lakin Müsavatın qalmaqallı qurultayından və saxta başqan seçkilərində A.Hacılının həmin vəzifəyə seçilməsindən sonra G.Aslanlı sabiq başqan İsa Qəmbərin təkidi ilə orada qaldı. İndi isə partiyada qruplaşmaların didişmələri, hətta İ.Qəmbərin müdaxilələrinə rəğmən, siyasi təşkilatın çöküşünün qarşısının alınmaması G.Aslanlının istefa vermək fikrini daha da reallaşdırır.

### Baş verənlərin fonunda görünən budur ki, Müsavat partiyasının siyasi ölümə doğru getməsi artıq fakta çevrilib

Belə olan vəziyyətdə isə, getmək istəyənlərin artacağına şübhə etmək olmaz. Çünki A.Hacılı və qardaşı Mustafa Hacıbəylinin Müsavatı özünküləşdirmək cəhdləri daha öncələr də istefalara səbəb olub. Hətta Müsavatda uzun illər can qoymuş şəxslərin adlarını da xatırlada bilərik: Mehman Muradlı, Daşqın Qaraşlı, Məhəmməd Murad, Vaqif Mustafaoğlu, Əhliman Abbaslı, Tural Abbaslı, Zakir İsmayılov və sairləri - onların hər biri, bilavasitə partiyanın saxta qurultayına etiraz edərək, istefa vermişdilər. Onu da qeyd edək ki, bənzər istefalar mənzərəsində A.Hacılının susqun davranması da diqqət çəkir. Bu amil də, belə deməyə əsas verir ki, əslində, o, partiya sıralarının azalmasının tərəfdarıdır. Çünki bu zaman o istədiklərini daha rahat şəkildə reallaşdırmağa çalışacaq və mane olan olmayacaq. Ancaq baş verənlərin fonunda görünən budur ki, Müsavat partiyasının siyasi ölümə doğru getməsi, artıq fakta çevrilib.

**Rövşən RƏSULOV**

# AXCP-Müsavat qarşıdurması...

*Məhz bu faktor müxalifətin sonunu çatdırıb*

***Uzun illərdir ki, davam edən AXCP-Müsavat savaşının nə zamansa başa çatacağı kimsəyə inandırıcı görünmür. Çünki reallaşdırıla bilinməyən iddialar buna imkan vermir. Hətta bu gün dünyanın müasir və inkişaf edən siyasi arenasında bu kimi partiyaların fəaliyyət göstərməsi, daha dəqiq desək, "fəaliyyət göstərmək" adı altında yalnız fərdi maraqlara xidmət etməsi onların aşkar simalarını ifşa edir. Bu ifşa isə, artıq belə bir nəticəyə gəlməyə imkan yaradır ki, hələ ötən əsrin ikinci onilliyi zamanı bolşevizm ideologiyası ilə menşevizm arasında cərəyan edən hadisələrin inikasını və əksini cəbhəçilərlə müsavatçılarda görmək o qədər də çətinlik yaratmır.***

### Onlar nədən xoflanırlar?

Ortada digər maraqlı nüanslar da mövcuddur. Bu kimi məsələnin təhlilini aparanda, biz, nəinki adıçəkilən partiyalar arasındakı münaqişələri, o cümlədən, həmin partiyaların daxillərindəki nifaqlı münasibətlərin də şahidlərinə çevrilirik. Bolşevik və menşevik təfəkkürü bu partiyaların daxillərinə artıq o qədər hopub ki, hətta sədrlər kiçik bir etirazlı hal gördükdə dərhal xoflanır, kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar.

Məsələn, Müsavat başqanı Arif Hacılı sosial şəbəkədə açdırdığı və partiyasına aid olan qapalı səhifədə belə bir qeyd etdirib. SİTAT: "Bizə dönük çıxıb getmiş adamların yazılarına dəstək verməyi, xeyir işlərində yanlarında olmağı, barələrində təriflər yazmağı tərgidin. Nəzərə alın ki, bu yolla dönüklüyə stimul verirsiniz".

Bu amil isə həmin təfəkkürlə hakimiyyətə can atmağın yersiz iddia olmasını bir daha sübuta yetirir. Partiyadaxili müxalifətçiliyə dözümsüzlüyün nümayişi, məhz belə nəticəyə gəlməyə imkan yaradır.

### Arif Hacılı yenidən sabiq müsavatçıların hədəfində

Yeri gəlmişkən, Müsavatı tərk edib getmiş şəxslər də bu tələbi aşkarladıqdan sonra onu "skrin şot" edib paylaşıblar. Bundan sonra isə, A.Hacılını kəskin tənqid ediblər. Keçmiş müsavatçılar Hacılını diktatorluqda ittiham edirlər. Onlar qeyd edirlər ki, partiyanı "bizim kimi düşünməyən, bizdən deyil" prinsipiylə idarə edən diktator başqan, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub. Bu səbəbdən, çox yaxın vaxtlarda partiyadan kütləvi istefaların başlayacağı da iddialar arasındadır. Hətta son günlərdə partiyanın Suraxanı rayon şöbəsindən sədr müavini statusundakı istefalardan biri də reallaşdırıldı.

### Əli Kərimli də bənzər vəziyyəti yaşayır

AXCP sədri Əli Kərimlidə də eyni hal yaşanır. Çünki ölkə müxalifətinin sıradan çıxmasında əsas rol oynayan bu məsələnin ilk yaradıcıları Ə.Kərimli sonradan həmin keçici sindromu liderlik iddiasında olan digər partiya sədrlərinə də yoluxdurub. Əlbəttə ki, bu tipli ambisioz mövqelər cəmiyyətdə müxalifətə qarşı itirilmiş inamı, ümumiyyətlə, yox edir, nəticədə, digər müxalifətin daha da dərindən parçalanması prosesi sürətlənir.

AXCP sədri ilə bağlı daha bir vacib ittihamı irəli sürmək mümkündür. Məsələn, AXCP ilk partiyalardandır ki, "Yurd" qrupunun rəhbəri olmuş Kərimlinin ambisiyaları üzündən həmin təşkilat parçalanmağa başladı və ölkədə parçalanmış partiyadan digər partiyaların yaranmasına səbəb olan vəziyyət yaşandı. Daha dəqiqi, partiyanın əksəriyyətinin digərlərinin parçalanmasından yaranması ənənəsinə start verildi. Nəticədə, bir partiya digərini rəqib kimi deyil, düşmən gözündə görür, bu halda isə, hansısa məqsəd üçün bir yerə toplaşmağa imkan vermir. Son günlər biz bir daha həmin vəziyyəti yetərincə müşahidə etmişik.

Nəticə etibarilə, bir-birlərini çıxdaş etməkdən ötrü başladılmış dava-şavalar - Ə.Kərimli, A.Hacılı və bu ambisiyanın daşıyıcısı olan digər partiyaların fəaliyyətləri müxalifətin sonunu çatdırıb.

**Rövşən NURƏDDİNOĞLU**

## Monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 8-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinq şəxsi nümayəndə Anjey Kaspşik və onun səhra köməkçisi Mixail Olaru tərəfindən aparıblar.

## Əcnəbi vətəndaşı aldadan qadın tutuldu



İyunun 7-də Nəsimi RPİ-nin 20-ci Polis Bölməsinə müraciət edən əcnəbi vətəndaş 2017-ci ilin fevral ayından cari il mart ayınadək olan müddətdə Sevinc adlı şəxsin paytaxt ərazisində onun alması üçün ev tapacağı adı ilə aldadaraq 77.000 manatını aldığını bildirib. DİN-dən SİA-ya verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini Sevinc Mirzəyeva müəyyən edilərək saxlanılıb. Faktla bağlı Nəsimi RPİ-də Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanılıb.

# Mənzildən 70 min dollar pul oğurlayan şəxslər saxlanılıb



Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsi əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində cari ilin yanvarında Şamil Şirinovun evindən 70 min ABŞ dolları oğurlamaqda şübhəli bilinən Ağdam rayon sakinləri - Elgün Yusifov, Elşad Namazov və Kəlbəcər rayon sakini Röyal Sabirli saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma zamanı zərərçəkənin mənzilində külli miqdarda pul olması barədə dəstə üzvü E.Yusifovun əvvəlcədən məlumat əldə etdiyi müəyyənləşib. Onun təklifi əsasında dəstənin digər üzvü R.Sabirli mənzilə daxil olaraq pulu oğurlayıb. Hadisədən sonra dəstə üzvləri əldə etdikləri pulu aralarında bölüblər. Saxlanılan şəxslər ifadələrində törətdikləri hadisəni etiraf ediblər. Faktla bağlı Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri əməliyyat tədbirləri və hərəkətləri davam etdirilir.

# İnsan hüquqlarının müdafiəsinin əsas prinsipləri

*İnsan hüquqlarının müdafiəsinin aşağıdakı prinsipləri vardır*

*V.Y.Çirkin şəxsiyyətin və vətəndaşın konstitusion hüquq və azadlıqlarının dörd qrupa bölündüyünü göstərir:*

**1.** Bərabərlik prinsipini ifadə edən hüquq və azadlıqlar (məsələn, vətəndaşların qanun qarşısında bərabərliyi);

**2.** Şəxsiyyətin azadlığına, toxunulmazlığına, ləyaqətinə təminat verən şəxsi hüquq və azadlıqlar;

**3.** Vətəndaşların cəmiyyətin siyasi həyatında iştirakı ilə əlaqədar olan siyasi hüquqlar və azadlıqlar. Bu hüquq və azadlıqlar vətəndaşlara cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etməyə imkan verir (məsələn, birləşmək azadlığı, bu isə həm də dövlət hakimiyyətinə təzyiq etmək üçün istifadə olunur);

**4.** Sosial-iqtisadi və mədəni hüquqlar. Bu hüquqlar şəxsiyyətin və cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı üçün hüquqi şərait yaradır (məsələn, əmək hüququ və əməyin azadlığı, mədəniyyət nailiyyətlərini istifadə etmək hüququ).

Elmi ədəbiyyatda, xüsusilə də, beynəlxalq hüquq sahəsində hüquqların dörd nəsli ayrılır. Birincisi, insan hüquqlarının ənənəvi nəslinə, adətən, konstitusiyalarda ilkin olaraq təsbit olunmuş şəxsi və siyasi hüquqlar aid edilir; ikincisi, sosial-iqtisadi hüquqlardır ki, onların da konstitusion təsbiti geniş kütlələrin hərəkətləri ilə, məsələn, fəhlə sinfinin çıxışları ilə əlaqədar olmuşdur; üçüncüsü, əsasən, ictimai həyatın qloballaşması, xalqların kollektiv tələbləri (məsələn, xalqların sülhə, inkişafa, öz müqəddəratını təyin etməyə olan hüquqları) ilə bağlı hüquqlar; dördüncüsü, ilk növbədə, elmi-texniki inqilabın şərtləri və nəticələri ilə bağlı olan hüquqlar qrupu (məsələn, sağlam ətraf mühitə olan hüquq).

Beləliklə, göründüyü kimi, insan hüquqları, onların söykəndiyi prinsiplər (azadlıq, suverenlik, qanunçuluq, bərabərlik, təhlükəsizlik, dözümlülük və s.), bu hüquqları bəyan edən sənədlər, müvafiq konseptual müddəa və yanaşmalar tarixi inkişafın gedişində getdikcə zənginləşdirilmişdir. "Birinci nəsil hüquqlar" adlandırılan vətəndaş və siyasi hüquqlar sonralar "ikinci nəsil hüquqlarla"-iqtisadi və sosial hüquqlarla tamamlandırılmış, daha sonra isə "üçüncü nəsil hüquqlar" adlandırılan hüquqlar haqqında ideyalar irəli sürülmüş və bu hüquqlara dinc yaşamaq hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s. aid edilir.

İnsan hüquqları o vaxt reallaşır ki, onlar adamların vəzifələri ilə sıx əlaqələndirilir. Qərb dövlətlərinin konstitusiyalarında İkinci Dünya müharibəsinədək vətəndaşların vəzifələri öz əksini tapmamışdır. Ancaq onlar, bütövlükdə, mövcud qanunçuluğa daxil edilmişdir. Demokratik dövlətlərin vətəndaşlarının vəzifələrinə qanunlara riayət etmək, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət etmək, vergiləri vaxtında ödəmək, polis göstərişlərinə tabe olmaq, təbiəti, ətraf mühiti, mədəniyyət abidələrini qorumaq və s. aid edilir. Bəzi ölkələrdə vətəndaşların əsas vəzifələrinə vətənə xidmət və sədaqət, dövlət hakimiyyəti orqanlarına seçkilərdə səsvermədə iştirak etmək və hərbi mükəlləfiyyətlik, vergi ödəmək aid edilir. Ayrı-ayrı dövlətlərin konstitusiyalarında əmək fəaliyyəti ilə məşğul olmaq (Fransa, Yaponiya, İtaliya və b.), uşaqları tərbiyə etmək (İtaliya), təhsil almaq (Türkiyə), öz sağlamlığına qayğı göstərmək və vaxtında müalicə üçün müraciət etmək (Uruqvay) vətəndaşların vəzifələrinə daxil edilmişdir. Məsələn, İtaliya Respublikası Konstitusiyasının (22 dekabr 1947-ci ildə qəbul olunmuşdur) 30-cu maddəsində göstərilir ki, "uşaqlarına baxmaq, onları öyrətmək və tərbiyə etmək ana və atanın hüququ və borcudur". Fransa Respublikasının Konstitusiyasına (4 oktyabr 1958-ci ildə qəbul olunmuşdur) görə, "hər kəs işləməyə borcludur" (60, səh. 149). Türkiyə Cümhuriyyəti Anayasasının 42-ci maddəsində isə ilkin təhsil almağın bütün vətəndaşlar üçün məcburi olduğu göstərilir (94, səh. 149,166).

Müasir dövrdə keçirilən islahatların əsas vəzifəsi insanı cəmiyyətin bütün həyat və fəaliyyətinin mərkəzinə qoymaq, onu ali sosial dəyər hesab etməkdən ibarətdir. İndi bütün siyasəti və onun reallaşdırılması təcrübəsini insana yönəltmək əsas məqsəd kimi çıxış edir. Şəxsiyyətin siyasi hüquqları və azadlıqları vəhdət təşkil etməklə, cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir. Onların reallıq dərəcəsi və məzmunu cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimdən, siyasi mədəniyyətindən, mənəvi həyatından, digər amillər və şəraitdən asılıdır.

Hər bir azadlığın, həmçinin, siyasi azadlığın obyektiv surətdə mövcud olan sərhədləri vardır. Siyasi sferada şəxsiyyətin hüquqi azadlığı siyasi (faktiki) və siyasi azadlıqdan geniş ola bilməz. Eyni zamanda, dövlət siyasi sferada hüquqi azadlığı məhdudlaşdıra bilər. Digər tərəfdən isə, vətəndaşlar qarşısında dövlət onların siyasi tələbatlar və mənafelərinin ödənilməsi, siyasi fəallığın inkişaf etdirilməsi üçün böyük məsuliyyət daşıyır. Dövlət siyasətinin bu prinsiplərindən geri çəkilmək hüququn və dövlətin demokratik xarakterinin deformasiyaya uğramasına gətirib çıxarır.

Şəxsiyyətin siyasi hüquqları və azadlıqlarının bütün növləri vahid bir kompleks təşkil edir. Onlar birbiri ilə sıx əlaqəli surətdə həyata keçirilir. Siyasi hüquq və azadlıqlar şəxsiyyətin siyasi vəzifələri ilə birlikdə vətəndaşın ümumi konstitusiya statusunun yarım sistemi olan siyasi-hüquqi statusunu təşkil edir. Onu da qeyd etmək lazımdır ki, şəxsiyyətin siyasi azadlığı, ilk növbədə, bütövlükdə cəmiyyətin azadlığı, həmçinin, şəxsiyyətin təmsil etdiyi sosial birliyin (qrupun, kollektivin, təşkilatın) siyasi azadlığı ilə müəyyən edilir. Şəxsin cəmiyyətdə və dövlətdə hüquqi vəziyyəti, ilk növbədə, onun statusundan asılıdır: vətəndaş və ya xarici (başqa dövlətin vətəndaşı, vətəndaşlığı olmayan şəxs, ikili, yaxud çox vətəndaşlığı olan şəxs). Xüsusi statusa malik qaçqınlar (başqa dövlətdən gələn şəxslər), məcburi köçkünlər (vətəndaşlar) və b. malik ola bilərlər. Onların hüquqi vəziyyəti, əsasən, ölkənin daxili qanunvericiliyi ilə, bəzi hallarda isə beynəlxalq hüquqla tənzimlənir.

Şəxsiyyətin siyasi və hüquqi statusunun müəyyən olunmasında vətəndaşlıq anlayışı böyük əhəmiyyət kəsb edir. Elmi ədəbiyyatda vətəndaşlıq şəxs və vətəndaş arasında hər iki tərəfdən müəyyən hüquq və vəzifələr törədən qarşılıqlı əlaqələr kimi izah olunur. Bu baxımdan da, həmin dövlətin vətəndaşları həm geniş hüquqlardan istifadə edir, həm də onların üzərinə daha çox vəzifələr düşür (hərbi xidmət daxil olmaqla). Xaricilər, adətən, bir çox siyasi hüquqlara malik olmurlar. Onların mülkiyyət hüququ var, bələdiyyə mənzilindən istifadə edə bilər (o cümlədən, pulsuz), əmək hüququna malik olur, lakin bəzi iş növləri onlar üçün məhdudlaşdırılır (məsələn, bir sıra ölkələrdə dəniz gəmilərinin kapitanı, təyyarə ekipajının komandiri, tele-radioda, teleqrafda, efirdə işləmək və s.). Əksər ölkələrdə xaricilərə mülkiyyət kimi torpaq əldə etmək hüququ verilmir. Dövlətdən sosial müavinətlər və imtiyazları əksər dövlətlərdə, məsələn, 90-cı illərdən, yalnız vətəndaşlar ala bilər. Qanunvericiliyin pozulmasına görə xaricilər ölkədən deportasiya oluna bilərlər. Digər tərəfdən, xaricilər vətəndaşların üzərinə qoyulan bir çox vəzifələri yerinə yetirmirlər. Məsələn, onlar ölkənin ordusunda xidmət etmirlər. Vətəndaşlığı olmayan şəxslərin vəziyyəti əksər hallarda xaricilərin vəziyyəti ilə analojidir. Lakin xaricilərdən fərqli olaraq, onlar hər hansı bir dövlətin diplomatik müdafiəsindən istifadə etmirlər ki, bu da situasiyanı mürəkkəbləşdirir.

Bir neçə vətəndaşlığı (o cümlədən, ikili vətəndaşlığı) olan şəxslər vətəndaşı olduqları bütün dövlətlərin qanunvericiliyinə müvafiq olaraq, hüquq və vəzifələrə malikdirlər. Təhlillər göstərir ki, bir sıra ölkələrdə belə şəxslər seçkilərdə dövlət orqanlarına öz namizədliklərini irəli sürür. Məsələn, ABŞ və Litva vətəndaşlığı olan V.Adampus 1997-ci ildə Litvanın prezidenti seçilmişdir və bundan sonra ABŞ vətəndaşlığından imtina etmişdir. Lakin bəzi ölkələrdə, məsələn, İtaliyada ikili vətəndaşlığa icazə verilmir, bir qrup ölkələrdə isə bu status dövlətlər arasında bağlanmış beynəlxalq müqavilə əsasında əldə edilə bilər.

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə görə ikili vətəndaşlığı olan şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər. Konstitusiyanın 100-cü maddəsində namizədlərə aid tələblər sırasında ikili vətəndaşlığın olmaması da göstərilir.

Müasir cəmiyyətdə qəbul olunmuş ümumi rəy ondan ibarətdir ki, hər bir şəxs hansı statusa malik olsa da, yaşadığı ölkənin qanunlarını bilməli və onlara riayət etməlidir, çünki qanunları bilməmək onların pozulmasına görə məsuliyyətdən heç kəsi azad etmir.

İnsan hüquqlarının praktiki reallaşdırılması ümumi vəzifədir və onun həlli ayrı-ayrı ölkələrin, həmçinin, bütün bəşəri sivilizasiyanın inkişaf səviyyəsini və humanistliyini səciyyələndirir. Məhz insan hüquqlarının qorunması daxili və beynəlxalq siyasətin əsas meyarı kimi çıxış edir. İnsan hüquqlarına hörmət vasitəsilə ayrı-ayrı dövlətlərdə, bütün dünyada şəxsiyyətin ali dəyəri təsdiq olunur. Bir sıra dövlətlərdə şəxsiyyətin hüquqlarının yerinə yetirilməsi həmin dövlətlərin sağlam iqtisadi və sosial inkişafı, təcavüzkar daxili və xarici siyasətin qarşısını almaq üçün olduqca vacib şərtlərdən biridir.

Bütün dünya miqyasında insan hüquqlarının həyata keçirilməsi beynəlxalq əlaqələrin əsl humanist, mənəvi əsaslarla qurulmasına, sülhün qorunması və möhkəmləndirilməsinə vacib təminatdır. Hər bir dövlət daxilində insan hüquqlarına hörmət və onun xarici siyasəti arasında, bilavasitə əlaqə vardır. Müharibə törətmək, beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaq, eyni zamanda, öz xalqının hüquqlarına hörmətsizlikdən başqa heç nə deyil. Faşist Almaniyasını, həmçinin, bu gün bizim ölkənin ərazisinin 20 faizini zəbt etmiş, 26 ildən artıq torpağımızda işğalçılıq müharibəsi aparan faşist Ermənistan dövlətini buna misal olaraq göstərmək olar.

A.Tokvil "Amerikada demokratiya" əsərində göstərir ki, "demokratiya siyasi hüquqlar anlayışını hər bir vətəndaşın şüuruna çatdırır və bu da onun əsas üstünlüklərindən biridir. Əlbəttə, hamıya siyasi hüquqlardan istifadə etməyi öyrətmək heç də asan deyil, lakin bu məqsədin nail olunması çox yaxşı, müsbət nəticələr verir".

Əlbəttə, A.Tokvilin qeyd etdiyi kimi, hamını siyası hüquqlardan istifadə etməyə öyrətmək asan deyil, lakin demokratik cəmiyyətdə bu məqsədin nail olunması olduqca vacibdir. Onun diqqət yetirdiyi bir vacib məsələ də ondan ibarət olmuşdur ki, "əgər xalq bundan əvvəl siyasi hüquqlara malik olmamışdırsa, onun bu hüquqlara yiyələndiyi vaxtda böhran baş verir ki, bu böhran da həm zərəri və həm də təhlükəli olur. Siyasi hüquqları ilk dəfə əldə edən sadə adamlar bu hüquqlara münasibətdə həyatın dəyərini bilməyən uşağın onu əhatə edən aləmə bəslədiyi münasibətə oxşar vəziyyətə düşürlər". Burada A.Tokvil məşhur bir kəlamı da gətirir: Nomo Ruer robustuc (latınca- güclü, lakin təcrübəsiz insan). O göstərir ki, bütün bunlar Amerikada da müşahidə olunur. O ştatları ki, vətəndaşlar hüquqlardan çoxdan istifadə edirlər, onlar bunu daha yaxşı edirlər. Bu istiqamətdə mülahizələrini A.Tokvil belə bir fikirlə yekunlaşdırır ki, "...azad yaşamağa öyrənməkdən başqa, çətin heç nə yoxdur".

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 9 iyun

## Səs-küy insulta səbəb ola bilər

Təmir-tikinti işləri zamanı yaranan səs-küy, avtomobil siqnalları böyük təhlükə mənbəyidir. Əsəblərə birbaşa təsir göstərən həmin səslər müəyyən sağlamlıq problemlərinə də səbəb olur. AZƏRTAC xəbər verir ki, Dünya Səhiyyə Təşkilatının məlumatına görə, əslində fərqində olmadığımız problemlərin kökündə 50 desibeli keçən səslər dayanır. Yuxusuzluq, stress, ürək-damar problemləri normadan artıq səs-küy nəticəsində yaranır.



Bunu nəzərə alan Dünya Səhiyyə Təşkilatının mütəxəssisləri insanlara həmin səslərdən mümkün qədər uzaq olmağı tövsiyə ediblər. Çünki yaranan xoşagəlməz səslər insulta və ürək xəstəliyinə aparıb çıxarır. Bir müddət əvvəl təşkilat paltaryuyan, qabuyuyan, ətçəkən maşının, tozsoran səsinin də insan sağlamlığına zərərli olduğu barədə xəbərdarlıq etmişdi.

## İlansancma zamanı nə etməli?

İlansancması yay fəslinin ən təhlükəli hadisələrindən hesab olunur. Statistikaya görə, hər il ölkəmizdə təxminən 120-130 ilansancma halı olur. Təəssüf ki, əksər hallarda zərərçəkəni həkimə çatdırana qədər hansı tədbirləri görmək lazım gəldiyini heç də hamı bilmir. Bunu nəzərə alaraq həkim və mütəxəssislərin bəzi məsləhətlərini nəzərə çatdırırıq.



İlansancması üçün xarakterik əlamət bundan ibarətdir: sancma yerində dəri qızarır, şişkinləşir, göyərmələr yaranır. Zərərçəkəndə ürəkbulanma, qusma, soyuq tər, nəfəsalmanın çətinləşməsi, zədələnən nahiyənin keyiməsi müşahidə olunur. Əsaslı tibbi baxışa qədər zərərçəkənə ilkin tibbi yardım göstərilməlidir. Bunun üçün əvvəlcə ilan sancan adamı sakitləşdirmək, qorxu və həyəcan hissini aradan qaldırmaq lazımdır. Sonra onu uzadaraq rahat şərait yaradılmalıdır. Əl altında olan materiallardan istifadə edərək yara nahiyəsinə şina qoyulmalıdır. Bundan sonra yaradan zəhəri çıxarmağa çalışmaq lazımdır. Sorma üsulu ilə zəhərin 20 faizini xaric etmək mümkündür. Zəhərin sorulması üçün iki əsas şərt tələb olunur: ilan sancandan sonra yalnız ilk 5-10 dəqiqə ərzində zəhəri sormaq mümkündür və bu zaman ağız boşluğunda yara, sıyrıntı, çürük və kariyes dişlər olmamalıdır.

Yara üzərinə xörək duzu məhlulu ilə isladılan, olmasa, təmiz quru sarğı qoyulmalıdır. Yaddan çıxarmaq olmaz ki, ilansancma zamanı yaranın ətrafına sıxıcı sarğı qoymaq və ya həmin nahiyəni yandırmaq, kəsiklər aparmaq və buz qoymaq qəti qadağandır. Hətta zəhərlənməyə xas əlamətlər olmasa belə, əgər ilanın dişlərinin izi görünürsə xəstə ən azı 12 saat ərzində müayinə olunmalı və müşahidə altında tutulmalıdır.

## Saqqız diş sağlamlığı üçün faydalı vasitədir

Əsası yeyilməyən elastik maddədən hazırlanan saqqız üzərində aparılan tədqiqatlar onun sağlamlıq, xüsusən də diş sağlamlığı üçün faydalı olduğunu sübut edib. AZƏRTAC xəbər verir ki, qədim Roma və Yunanıstanda saqqızdan istifadə edilsə də, ilk təkmilləşdirilmiş saqqızı 1869-cu ildə Tomas Adams hazırlayıb. Saqqız çeynəməyin bir sıra xeyirli cəhətləri var. İstanbul universitetinin stomatologiya fakültəsinin müəllimləri saqqızın dişlər üçün faydalı olduğunu söyləyirlər. Saqqız çeynəmək çənə oynağını məşq etdirir, əzələlərin inkişafına səbəb olur, lakin onu acqarına çeynəmək mədəyə ziyandır. Pəhriz saxlayanlara isə saqqız çeynəmək məsləhət görülmür.



## Avropa çempionatı: İki Azərbaycan güləşçisi yarımfinala yüksəlib



İstanbulda keçirilən 23 yaşadək güləşçilər arasında Avropa çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, beşinci yarış günündə 57, 65, 70, 79 və 97 kq çəki dərəcələrində sərbəst güləşçilər mübarizəyə qoşulub. Güləşçilərimizdən ikisi - Əfqan Xaşalov (57 kq) və Ənvərbəy Dolqatov (65 kq) yarımfinala yüksəlib. Yarımfinalda hər iki güləşçimizin rəqibi Almaniya idmançısı olacaq. Əfqan Xaşalov 1/4 finalda Ukrayna pəhləvanı Taras Markoviç üzərində 4:3 hesabı ilə qalib gələrək almaniyalı Viktor Lezin ilə qarşılaşacaq. Ənvərbəy Dolqatov isə ardıcıl olaraq bolqarıstanlı Dimitar İvanovu (14:4), ukraynalı Andrii Sviridi (10:0) məğlub edərək, növbəti mərhələdə Almaniya təmsilçisi Nikitas Dorna qarşı mübarizə aparacaq.



## Erik Abidal "Barselona"ya qayıdıb

Erik Abidal sabiq klubu "Barselona"ya qayıdıb. SİA-nın məlumatına görə, veteran futbolçu klubun texniki direktor vəzifəsində çalışacaq. 38 yaşlı fransalı bu vəzifədə Robert Fernandesi əvəz edəcək. Fernandes iyunun 30-da işindən ayrılacaq. Abidal futbolçu kimi 2007/2013-cü illərdə "Barselona"da çıxış edib.

## Denis Kristi: "Bakıdan xoş təəssüratlarla ayrılacağam"




"Mən Kanadadan gəlmişəm. Oğlum Bakıda BMX üzrə dünya çempionatında iştirak edir. Bu, onun iştirak etdiyi ikinci yarışdır. BMX üzrə dünya çempionatı Azərbaycanda çox yüksək səviyyədə təşkil olunub. Oğlum Bakı Velotrekini çox bəyənib və bu barədə böyük həvəslə danışır". Bunu SİA-ya açıqlamasında BMX üzrə dünya çempionatı ilə əlaqədar ölkəmizə gələn kanadalı azarkeş Denis Kristi deyib.İndiyədək bir çox ölkələrə səyahət etdiyini vurğulayan Denis Kristi bildirib: "Bakının özünəməxsus memarlıq üslubu və gözəlliyi məni heyran etdi. Şəhərin mərkəzində İçərişəhərlə tanışlıq zamanı sanki bir neçə əsr əvvələ səyahət etmiş olduq. Bakıda tarixi binalarla yanaşı, müasir memarlıq nümunələri olan möhtəşəm binalar da var. Belə binalardan xüsusən Heydər Əliyev Mərkəzinin gözəlliyi və möhtəşəmliyi məni valeh etdi. İnsanlar bizə hər yerdə mehribanlıq göstərirlər. Bakıdan xoş təəssüratlarla ayrılacağam".




## Futbol üzrə dünya çempionatına 2, 4 milyondan çox bilet satılıb

FIFA dünya çempionatının matçlarına 2. 403.116 bilet satıb. FIFA-nın rəsmi saytında yer alan xəbərə görə, biletlərin çoxu (871.797) rusiyalı azarkeşlərin payına düşüb, 54 faizi isə xarici azarkeşlər arasında paylaşdırılıb. Ən çox bilet alan ilk on ölkə sırasına ABŞ (88.825), Braziliya (72.512), Kolumbiya (65.234), Almaniya (62.541), Meksika (60.302), Argentina (54.031), Peru (43.583), Çin (40.251), Avstraliya (36.359) və İngiltərə (32.362) daxil olub. FIFA-nın müxtəlif müştəri qrupları üçün ehtiyatda saxlanılan 100.000-dən çox əlavə bilet iyunun 8-də qurumun rəsmi saytında satışa çıxarılacaq. Bu kvota bütün matçlara, habelə müəyyən matçlara 4-cü dərəcəli biletləri ehtiva edir.

## 2018-ci il Dünya Çempionatının rəsmi mahnısının videoklipi təqdim edilib



Məşhur aktyor və "Qrammi" mükafatı laureatı amerikalı Uill Smit, onun həmyerlisi Niki Cem və alban müğənnisi Era İstrefi tərəfindən ifa olunan futbol üzrə 2018-ci il Dünya Çempionatının rəsmi mahnısının videoklipi ictimaiyyətə təqdim olunub. FİFA-nın rəsmi saytında yer alan xəbərə görə, videoklip Beynəlxalq Futbol Federasiyasının "Youtube" şəbəkəsindəki rəsmi kanalında yerləşdirilib. "Live İt Up" adlanan mahnı "Diplo" kimi tanınan amerikalı dicey Tomas Vesley tərəfindən bəstələnib. Bu mahnı futbol üzrə XXI dünya çempionatının iyulun 15-də Moskvada "Lujniki" stadionunda keçiriləcək final oyunu öncəsi ifa olunacaq.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500